www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-9 mart 2016-cı il Çərşənbə axşamı № 54 (6375) Qiyməti 60 qəpik

**Xəbər**

## Ölkədə borc üstündə üç qətl törədildi

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycan ərazilərini talayan Ermənistanla bağlı şok hesabat




Düşmən ölkə Qarabağı necə talayır; rəsmi Bakı Beynəlxalq Məhkəməyə müraciət edə bilər

yazısı səh.13-də

### "Yeni Müsavat" qəzetində 8 mart bayramı bir başqa qutlandı; Rauf Arifoğlundan fantastik bayram arzusu...

yazısı səh.4-də

### DTX rəisinin yeni müavini İsmayıl Bağırov kimdir?

yazısı səh.3-də

### Donald Tramp Amerikanın prezidenti olsa...

yazısı səh.9-da

### Bakının bir addımlığında möcüzə vulkan: şəfalı palçıq, bilinməyən Hamamdağ

yazısı səh.10-da

### Türkiyə və ABŞ kəşfiyyatları birgə işləməyə başladılar

yazısı səh.9-da

### Azərbaycan NATO-ya doğru - yolun harasındayıq...

yazısı səh.12-də

### Azərbaycana sığınan 9 nəfərin qaçqın statusu ləğv edildi

yazısı səh.14-də

### "Oazis"də dava: sərxoş müştərilər polisləri döydülər

yazısı səh.2-də

### Cəbhədə vəziyyət gərgindir, düşmən xəbərdar edildi

yazısı səh.13-də

### Dollar yeni rekorduna doğru - rəsmi məzənnə 1,62 oldu...

yazısı səh.2-də

## Bölgənin taleyini dəyişə biləcək ilginc gəlişmə

# TÜRKİYƏ-AZƏRBAYCAN -İRAN İTTİFAQI YARANIR - RUSİYA ƏNGƏLLƏMƏYƏ ÇALIŞIR

Rusiya İranın arxasından çəkilir; Kremlin Xəzərdə təhlükəli təcavüz planlarının daha bir pərdəarxası; əzələ nümayişindən cənub qonşumuza da "pay" düşür, çünki...; Moskva Tehrana S-300 raket sistemlərinin verilişini dayandırdı




yazısı səh.8-də

## İcra başçısının xidməti maşınının mübhəm fotoları

Başçının avtomobili ilə bağlı yayılan şəkillərə və xəbərə görə qurumdan "Yeni Müsavat"a açıqlama verildi; "O fotolardan biri bizə aiddir, amma..."

yazısı səh.5-də



*Hacı İbrahim Nehrəmli:*

### "Zaman kazino məsələsində məni haqlı çıxaracaq"

yazısı səh.3-də



### Zahid Oruc siyasətin radarlarında niyə görünməz olub...

yazısı səh.5-də



Rafael Cəbrayılov

### Avropa Məhkəməsinin qərarlarından imtina layihəsinin müəllifi danışdı

yazısı səh.6-da

# Vətəndaşların həqiqi hərbi xidmətə çağırılması haqqında sərəncam imzalandı

**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.**



Sərəncamla 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və ölkə qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılıblar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il aprelin 1-dən 30-dək ehtiyata buraxılıblar.

Nazirlər Kabinetinə bu sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görmək tapşırılıb.



## Prezident Maştağa-Bilgəh yolunun tikintisinə 2,5 milyon manat ayırdı

**Prezident İlham Əliyev Bakı şəhəri Sabunçu rayonunun Maştağa-Bilgəh avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Altmış üç min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Maştağa-Bilgəh avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etsinlər"

## Bakının əsas prospektində sürət həddi dəyişdi



**Paytaxtın Heydər Əliyev prospektində, Şəfa stadionunun qarşısında yerləşən sürət portalında metronun "Koroğlu" stansiyası istiqamətində köməkçi yolun birinci hərəkət zolağında sürət həddi 80-km/saatdan 60 km/saata endirilib.**

Bu barədə virtualaz.org-a Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzindən məlumat verilib.

Qeyd edilib ki, irəlidə əsas yoldan köməkçi yola keçid olduğu üçün hərəkətin sağa yönləndirilməsi haqqında məlumatverici nişan əlavə edilib.

Mərkəzdən bildirilib ki, bu addım hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə atılıb.

## Cavanşir Axundov Azərbaycanın Latviyada səfiri təyin edildi



**Cavanşir Əşrəf oğlu Axundov Azərbaycanın Latviyada fövqəladə və səlahiyyətli səfiri təyin edilib. APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.**

Dövlət başçısının digər sərəncamı ilə C. Axundov Azərbaycanın İrandakı səfiri və eyni zamanda Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılıb.

## Bakı dünya çempionatından imtina etdi

**Bu ilin yayında Bakıda keçirilməsi planlaşdırılan yelkənli qayıqların 470 Olimpiya sinfi üzrə dünya çempionatı baş tutmayacaq.**

Ötən il Yunanıstanın Afina şəhərində Beynəlxalq Assosiasiyanın Baş Assambleyası mötəbər yarışı keçirməyi Azərbaycana həvalə edib.

Amma maliyyə probleminə görə Azərbaycan Yelkənli İdman Federasiyası dünya çempionatını təşkil etməkdən imtina edib.

Qeyd edək ki, bu idman növü 1976-cı ildən Olimpiya sinfinə daxil edilmiş 10 yelkənli qayıq üzrə idman növündən biridir. Üç yüz nəfərdən çox idmançının iştirak etdiyi bu idman növü üzrə yarışlar dənizdə keçirilən ən böyük yarışlardan biri hesab olunur.

## Səhiyyə Nazirliyində Apelyasiya Şurası yaradıldı

**"Azərbaycanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya şuralarının yaradılması haqqında" ölkə prezidentinin fərmanının icrasının təmin edilməsi məqsədilə Səhiyyə Nazirliyində Apelyasiya Şurası yaradılıb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, Apelyasiya Şurasının ilk iclası keçirilib, kollegial orqanın fəaliyyət istiqamətləri və təşkilati məsələlər müzakirə edilib.

Tərkibinə Səhiyyə Nazirliyinin məsul şəxsləri daxil olan Apelyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı verilən təkrar şikayətlərə baxan kollegial orqandır. Səhiyyə Nazirliyində şuranın yaradılması şikayətlərə baxılma sahəsində şəffaflığın və obyektivliyin, həmçinin sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi məsələlərinə diqqətin daha da artırılmasına xidmət edəcək.

## "Azərişıq"dan fırıldaqçılıqla bağlı rəsmi açıqlama

### Tanrıverdi Mustafayev: "Qapınıza gələn heç bir şəxsə ödəniş etməyin"

"Qapınıza gələn heç bir şəxsə ödəniş etməyin". Musavat.com saytının (""Borcunuz var, ödəniş edin" deyən şəxs, ev sahibini aldadıb") adlı yazısına "Azərişıq" ASC-dən reaksiya gəldi.

Suraxanı rayonu, Zığ qəsəbəsi, İdris Süleymanov 108 ünvanında yaşayan Ağaqədeş Mürşüdov şikayət edərək bildirmişdi ki, özünü "Azərişıq" ASC-nin əməkdaşı olaraq təqdim edən Pərviz adlı şəxs ondan elektrik enerjisi borcuna görə 80 manat alıb, amma pulu hesaba yatırmayıb.

**Məsələ ilə bağlı saytımıza açıqlama verən "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirdi ki, onların bu adda əməkdaşı yoxdur:** "Biz abonentlər üçün ideal şərait yaradırıq ki, onlar ödənişi rahat və güvənli formada edə bilsinlər. Beləliklə, abonentlə əməkdaş arasında pul alış-verişi olmur. Bu məsələyə gəlincə isə şikayətçi vətəndaş tanımadığı birinə pul verməli deyildi. Bizim əməkdaşların xüsusi vəsiqələri var. Həmin ərazi üzrə bizim Pərviz adlı əməkdaşımız yoxdur. O kimdirsə, bizim adımızdan istifadə edir. Buradan hər kəsə səslənirəm. Qapınıza gələn heç bir şəxsə ödəniş etməyin. Bunun üçün xüsusi ödəmə aparatları, poçtlar və digər vasitələr var. Hətta internet üzərindən ödəniş etmək olar. "Azərişıq" ASC ödənişlərin asanlaşdırılması üçün ilk addımı atan qurumlardan biridir. Belə hallar bizim adımıza ləkə gətirir".

**Şikayətçi onun adına haqsız yerə 3 min manat borc yazılması ilə bağlı da narazılıq etmişdi. Tanrıverdi Mustafayev bu məsələyə də aydınlıq gətirdi:** "Bunu araşdırmaq lazımdır. O borc neçənci ildən bəri yaranıb, həqiqətən də borc varmı? Bunu dəqiq bilmək üçün bizim müştəri xidmətlərimiz var. Qəbzlərlə birgə oraya yaxınlaşsın. Araşdırma aparaq. Bundan sonra bütün həqiqətlər ortaya çıxacaq".

❑ **Məhəmməd TÜRKMƏN**




## "Oazis"də dava: polisləri döydülər

**"Əlimizdə olan kamera qeydləri polisə təhvil verilib. Hadisə ilə bağlı araşdırma aparılır". Bu sözləri axar.az-a "Oazis" restoranının administratoru restoranda polis əməkdaşlarının döyülməsi ilə bağlı məlumat verərkən deyib. Restoran işçisinin sözlərinə görə, hadisə martın 5-də gecə saatlarında baş verib. Sərxoş müştərilər polis əməkdaşlarına hücum edərək onların poqonlarını qoparıb.**

Xatırladaq ki, Bakının Binəqədi rayonunda, Ş.Məmmədov küçəsində yerləşən "Oazis" restoranında dava düşüb. Binəqədi Rayon Polis İdarəsindən sputnik.az-a bildiriblər ki, restoranın iki müştərisi - 1986-cı il təvəllüdlü Ağdam rayon sakini və əvvəllər məhkum olunmuş Mehdiyev Elçin Vahid oğlu və 1986-cı il təvəllüdlü Abşeron rayon sakini Məmmədov Elçin Əli oğlu dava salıblar.

Yerli polis əməkdaşları - 1994-cü il təvəllüdlü Əliş Məmmədzadə, 1989-cu il təvəllüdlü Orxan Sultanov və 1988-ci il təvəllüdlü Elşən Xuduşov asayişi pozanları sakitləşdirməyə çalışıblar. Amma xuliqanlar Sultanovu və Məmmədzadəni yumruqlamağa başlayıblar. Göstərilən müqavimətə baxmayaraq, cinayətkarlar saxlanılıb və adıçəkilən rayonun 5-ci polis bölməsinə gətiriliblər. Ancaq saxlanılan şəxslər orda da sakit dayanmayıblar.

Bölmənin qarşısında onlar "Fiat Doblo" markalı polis avtomobilinin yan şüşələrini sındırıblar. Dava salanların üçüncüsü - 1987-ci il təvəllüdlü Bakı sakini Məmmədov Nicat Nazim oğlu özü polis bölməsinə gələrək serjant Cahid Mahmudovu döyüb. Nəticədə polis hər üç davakarı barmaqlıq arxasına salıb.

Axtarış zamanı saxlanılan şəxslərin üstündən narkotik maddə tapılıb. Belə ki, Mehdiyevin üzərində 5,75 qram, Elçin Məmmədovun üzərində 5,37 qram marixuana, Nicat Məmmədovun üstündə isə 0,231 qram heroin aşkar edilib.

## Martın 9-da dolların məzənnəsi 1,62 manatı ötəcək

**Azərbaycan Mərkəzi Bankı (AMB) martın 9-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi martın 9-na 1,6228 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dollar dünən 1,6105 manata bərabər olub.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur



## Elxan Süleymanov 136 nəfər Qəhrəman ananı təbrik etdi

**Şamaxının millət vəkili Elxan Süleymanov 8 martla bağlı 136 Qəhrəman ananı təbrik edib. Şamaxı şəhərindəki qərargahından verilən məlumata görə, martın 7-də millət vəkilinin adından rayon ərazisində yaşayan 136 nəfər Qəhrəman anaya 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bayram hədiyyələri və açıqcalar təqdim olunub. Qeyd edək ki, millət vəkili Elxan Süleymanov tərəfindən qadınlar günü ərəfəsində qəhrəman anaların təbrik edilməsi xoş ənənəyə çevrilib. Builki tədbir sayca 6-cıdır.**

❑ **M.MAHRIZLI**

## AŞ PA-da Azərbaycanla bağlı yeni məruzəçi təyin olundu

**AŞ PA-nın İnsan hüquqları və hüquqi məsələlər komitəsinin Parisdə keçirilən iclasında qurumun Azərbaycanla bağlı yeni məruzəçisi təyin olunub. APA-nın Avropa bürosunun xəbərinə görə, belçikalı parlamentar Alen Destekse AŞ PA sədri Pedro Aqramuntun yerinə Azərbaycanda insan haqları üzrə məruzəçi vəzifəsinə seçilib.**

Qeyd edək ki, AŞ PA-nın 2014-cü ilin iyun sessiyası çərçivəsində qurumun İnsan hüquqları komitəsində "Azərbaycanın Avropa Şurasında sədrliyi: bunun insan haqlarına təsiri nə olacaq?" adlı sənəd qəbul olunmuşdu və bu məsələnin araşdırılması üçün Pedro Aqramunt Azərbaycanda insan hüquqları üzrə məruzəçi təyin edilmişdi.

Bu ilin yanvarında Pedro Aqramunt AŞ PA sədri vəzifəsinə seçildiyindən, məruzəçi vəzifələrində fəaliyyətini dayandırıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 54 (6375) 8 mart 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Zaman kazino məsələsində məni haqlı çıxaracaq"

## Hacı İbrahim Nehrəmli: "Məmurların adlarını çəkməyə qorxanlar məni qərəzli şəkildə tənqid edirlər"

**Deputat Qüdrət Həsənquliyev Milli Məclisin sonuncu plenar iclasında müzakirə olunan idman mərc oyunları ilə bağlı məsələyə münasibət bildirən zaman təklif edib ki, Azərbaycanda xarici turistlər üçün fəaliyyət göstərən kazinolar açılsın.**



Deputat bildirib ki, vaxtilə prezident Heydər Əliyev tərəfindən Azərbaycanda kazinolar ləğv ediləndə, bu addımı dəstəkləyib:

"Ancaq indi vəziyyət dəyişib. Bu gün qonşu Gürcüstanın Batumi bölgəsində kazinolar fəaliyyət göstərir və həmin kazinolar ölkə büdcəsinə gəlir gətirir. Kazinolar ölkə vətəndaşları üçün qadağan edilsə də, ancaq turistlər üçün açıqdır. Qardaş Türkiyədə də bu təcrübə var və ölkə xeyli gəlir götürür. Düşünürəm ki, Azərbaycanın da ayrı-ayrı turizm bölgələrində bunu həyata keçirmək olar. Yəni Azərbaycan vətəndaşları üçün kazinolar qadağan, əcnəbilər üçünsə açıq olarsa, bundan ölkə büdcəsi də xeyli qazanc əldə edə bilər".

**Deputatın bu sözlərindən sonra "Avesta Concern"nin rəhbəri, tanınmış iş adamı Hacı İbrahim Nehrəmli publika.az saytına açıqlamasında səsləndirilən fikirləri dəstəkləyərək söyləyib ki, ona şərait yaradılarsa, kazino açıb ölkəyə milyardlar gətirər:**

"Azərbaycanın əksər imkanlı şəxsləri istirahət üçün xaricə gedən zaman daha çox kazino olan ölkələri seçirlər. Onlar bununla məşğuliyyət tapırlar və kazinoklublarda oturub istirahət edirlər. Mən bunu neçə illərdir ki, müşahidə edirəm. Azərbaycanda kazinolar üçün ən əlverişli "Xəzər adaları" şəhərciyidir. Şəhərin inşasına başlayanda da əsas məqsədim o olub ki, Azərbaycana gələn turistlərin sayı artsın. Bunun üçün də turizm mərkəzləri açmaq lazımdır. Turizmdən ən çox gəliri varlı turistlərin hesabına əldə etmək olur. Varlı turistlərin də ən sevdiyi məşğuliyyət kazinolardır. Əgər icazə verilərsə, mən "Xəzər adaları"nda dünya turistlərinin böyük marağına səbəb olacaq kazino aça bilərəm".

**Lakin Hacı İbrahimin söylədikləri ictimaiyyətdə birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə Hacı İbrahimin bu fikirlərini tənqid edənlər olub. Həmçinin iqtisadçı Vüqar Bayramov da Hacı İbrahimin fikirlərinə münasibət bildirərək sosial şəbəkədə yazıb ki, nəinki heç bir müsəlman ölkəsində, hətta xristan dövlətində belə hacı statuslu şəxs ölkəsində kazinoların, yəni qumarxanaların fəaliyyətini arzulamaz. İqtisadçı bildirib ki, kazinoların fəaliyyətinin bərpa edilməsi "çirkli pullar"ın yuyulmasına gətirib çıxara bilər:**

"Milyardları ölkəyə kazinolar deyil, qeyri-neft sektorunun inkişafı gətirə bilər. Kazinolarla iqtisadiyyatı inkişaf etdirmək utopiyası artıq çox keçmişdə qaldı. Azərbaycanda turizmin inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilsə, kazinolar bərpa edilmədən də bu sektoru inkişaf etdirmək mümkündür.

Kazinoların fəaliyyətinin bərpa edilməsi "çirkli pullar"ın yuyulmasına gətirib çıxara bilər. Xüsusən də qeyri-qanuni yollarla pul qazanmış şəxslər həmin pullar rəsmiləşdirilən zaman onu məhz kazinoda udduqlarını göstərə bilərlər. Belə oyunlarda maraqlı olan xarici turistin kazino oyunları üçün vizasız Gürcüstana deyil, bahalı Azərbaycana gələcəyi ağlabatan deyil".

**Hacı İbrahim Nehrəmli ona ünvanlanan tənqid və qınaqlara cavab verib. O, "Yeni Müsavat"a bildirib ki, əslində onun söylədiyi məsələ başqadır:**

"Açığı, cəmiyyətin səsləndirdiyim fikirlərə tənqidi yanaşacağını gözləyirdim. Ancaq hesab etmirdim ki, Azərbaycan gəncliyi bu məsələni belə qabardaraq, geniş formada müzakirəyə çıxarsın. Çünki fikirlərimi söyləyəndə nəzərdə tutmamışam ki, bu kazinolar Azərbaycan vətəndaşları üçün açılsın. Söyləmişəm ki, kazinolar açılsın və oradan ölkəyə gələn turistlər istifadə etsinlər. Bu da turistlərin sayının artırılması üçün lazımdır. İnsanlar deputatların fikirlərini yox, mənim söylədiklərimi tənqid etdilər. Görünür, bu, mənin səmimi insan olmağımla əlaqəlidir. Kazinolara bir neçə dəfə ona görə getmişəm ki, ümumiyyətlə, buranın nə olduğunu müşahidə edim. 1997-ci ildə xaricdə olarkən bir yoldaş mənə dedi ki, axşam kazino-kluba gedəcəyik. Mənim də onlarla getməyimi təklif etdi. Mən də bildirdim ki, kazinoda nə işim var? Buna çox pis baxdım. Dedi ki, gəl, ancaq oynamazsan. Lakin orada olduğum zaman gördüm ki, kazino əslində qumar deyil. Bu da bir mədəniyyətdir".

**Hacı İbrahim bildirib ki, onunla bağlı tənqidi fikir səsləndirənlər kazinonun nə olduğunu bilmirlər:**

"Onların özləri heç vaxt kazinoda olmayıblar. Ona görə də kazino dedikdə qumar başa düşürlər. Yenə də nə yazırlarsa, sağ olsunlar. Hacı kimi nə kazinoda udmaq, nə də uduzmaq istəmərəm. Onu özümə haram bilirəm. Heç zaman qumar oynamamışam və bunun heç marağında da deyiləm. "Xəzər adaları"nda kazinonun açılması ilə bağlı fikrimə gəlincə isə bunu da xaricilər üçün nəzərdə tutmuşam. Xarici investor bildirir ki, Çin xalqını bura evlər almaq üçün gətirəcək. Şərti də budur ki, kazino olmasa, bura turist cəlb etmək çətin olar. Dünyanın bir çox ölkələrində də kazinolar var".

**H. İbrahim bildirib ki, əslində ölkədə qumarın oynanıldığı yerlər başqadır:** "Ən böyük qumar "Topaz" və digər bu kimi futbol oyunlarına qoyulan pullardır. Onlara da icazə verilir. Kazinoya da dövlət istəsə icazə verəcək, istəməsə verməyəcək. Onsuz da ölkədə 100-ə yaxın gizli qumarxana yerləri var. Nə qədər adam bu yerlərdə bədbəxt olur. Bəs onlardan nə üçün danışmırlar?! Bir var leqal ola, insanlar vergi verə, dövlət büdcəsi bundan qazana, bir də var ki, qeyri-qanuni. Görünür, bəziləri çox bekar qalıb. Müzakirə etməyə mövzu tapmır. İqtisadçı Vüqar Bayramova gəlincə isə indi hərə özünü bir cür reklam edir də. Vüqar müəllimə çox böyük hörmətim var. O bildirir ki, hacı statuslu şəxs kazino açılması üçün məsləhət verməz. Ancaq mən deməmişəm ki, hacılar gedib kazinoda oynasınlar. Ora mən iş adamı kimi getmişəm və söylədiyim fikirlər də iş adamı kimi şəxsi düşüncələrimdir".

**Hacı İbrahim deyib ki, bu mövzunun mətbuatda və sosial şəbəkələrdə müzakirə edilməsinin tərəfdarıdır:** "Amma qərəzli şəkildə mənim üstümə gəlmələrini də normal saymıram. Görünür, bəziləri məmurların adlarını çəkməkdən, onları tənqid etməkdən qorxur. Ona görə də mənim üstümə gəlirlər. Canları sağ olsun. İnanıram ki, bu mövzuda zaman məni haqlı çıxaracaq".

Onu da qeyd edək ki, Azərbaycanda kazinoların fəaliyyətini 1998-ci ildə mərhum prezident Heydər Əliyev qadağan edib. Lakin qonşu ölkələrdə bu məsələyə bizdəki kimi radikal yanaşma yoxdu. Misal üçün, Gürcüstanda çoxsaylı kazinolar fəaliyyət göstərir. Kazino fəaliyyəti məhdud formada olsa da, Ermənistanda, Belarusda, Rusiyada və Qazaxıstanda var. Həmçinin Qırğızıstan da bu biznesdən kənarda qalmaq istəmir və hökumət səviyyəsində tədbirlər görülməkdədir.

❑ **Əli RAİS**

# DTX rəisinin yeni müavini İsmayıl Bağırov kimdir?

## Eldar Mahmudovun işdən çıxardığı polkovnik geri qaytarıldı; sabiq MTN-çilər yeni təyinatdan danışdılar



**Prezident İlham Əliyevin sərəncamı ilə İsmayıl Bağırov Dövlət Təhlükəsizlik Xidmətinin rəis müavini təyin olunub. Təhlükəsizlik qurumundakı yeni təyinat ciddi müzakirələr açıb. Buna səbəb DTX rəisinin yeni müavininin kimliyidir. Belə ki, İ.Bağırov bir zamanlar Milli Təhlükəsizlik Nazirliyində çalışıb, lakin sonradan "MTN inqilabı"nın əsas fiquru olan Eldar Mahmudov tərəfindən bu sistemdən uzaqlaşdırılıb.**

Sabiq MTN-çilərin yeni təyinatla bağlı mövqelərini aldıq.

**Keçmiş MTN zabiti, polkovnik İlham İsmayıl Bağırovun** təhlükəsizlik sisteminin ən professional şəxslərindən biri olduğunu söylədi: "O, peşəkar zabitlərdəndir. Onunla birlikdə çalışmışıq, şöbələrdə rəis olmuşuq. Bağırov vaxtilə ən məsuliyyətli şöbənin rəisi olub. Çox yüksək səviyyədə işini aparmağı bacaran şəxsdir. Geri qaytarılan şəxslərdən ən birincisi odur, düzgün edib, onu geri qaytarıblar. İsmayıl Bağırov Azərbaycan xüsusi xidmət orqanının tək-tək professionallarından biridir. Ona görə də onun vəzifəsinin böyüməsi təqdirəlayiqdir".

**Sabiq təhlükəsizlik zabiti Arzu Nağıyev** DTX rəisinin yeni müavini haqda bunları dedi: "İsmayıl Bağırov öz işinin peşəkarıdır. Uzun müddət təhlükəsizlik xidmətində çalışıb. Vətənini sevən insanlardan biridir. Bu təyinat vaxtında verilib, eyni zamanda seçim dəqiqdir. Eldar Mahmudovun zamanında da bu sistemdə çalışmış, qanunsuz olaraq, arzuolunmaz variantla onu işdən azad etmişdilər. İsmayıl Bağırovun bu vəzifəyə təyin olunması dövlət başçısının çox düzgün, dəqiq seçimidir. O, Dağlıq Qarabağ münaqişəsini keçmiş, öz işini mahir bilən bir çekistdir. Əvvəllər Əks-Kəşfiyyat üzrə Baş İdarənin rəisi olub. Yəni Ermənistanı, xarici strukturları gözəl bilir. Namiq Abbasovun beynəlxalq əlaqələr üzrə köməkçisi olub".

❑ **Cavanşir ABBASLI**

# "Bizə sizin əziyyətinizi çəkmək çox xoşdur..."

## "Yeni Müsavat" qəzetində 8 mart bayramı bir başqa qutlandı; Rauf Arifoğlundan fantastik bayram arzusu: "Xanım əməkdaşlara ayda 5 min manat maaş...."

**Bir neçə gün öncədən 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı bir neçə yazı yazmışdıq. Ənənəvi olaraq... Bayramın tarixçəsi, niyə bu bayram Azərbaycanda rüşvətlə assosiasiya olunur və sair. Maraqlı burasıdır ki, elə həmin yazını da xanım əməkdaşlar yazmışdı. Bəzi kişilərin bayram deyintisinə zatən fevralın sonundan start verilib, bunu bilməyən yox...**

Amma bu gün qərar verdik ki, bütün neqativləri, bayramın boynuna yüklənən mənfi enerjini bir kənara qoyub, onu ağız dadı ilə qutlayaq. Sağ olsunlar, heyət tam olsun deyə, redaksiyadan kənara çıxan xanım əməkdaşların gəlişini gözlədilər. Günel Manaflı Təhsil Nazirliyindəki tədbirdən qayıtdı, bu sətirlərin müəllifi isə qızını rəqs məşğələsinə qoyub, redaksiyaya döndü. Nəhayət, xanım heyət tam formalaşdı....

Məlum, 8 mart iş günü olmadığı üçün qutlama da bir gün öncədən, yəni dünən keçirilməli idi. Ona görə də "Yeni Müsavat"ın dəyişməyən ənənəsi yaşandı yenə - yığışdıq iclas otağına. Redaksiyanın hər bir xanım əməkdaşı üçün öncədən alınan güllər, daha bir hədiyyə və çay süfrəsi öz sahiblərini gözləyirdi. Təbrik nitqini isə ənənəvi olaraq **media qrupumuzun rəhbəri Rauf Arifoğlu** söylədi. O dedi ki, ildə bir dəfə də olsa, təqvim onlara, yəni, güclü cinsin nümayəndələrinə qadınların əvəzedilməzliyini, təkrarsızlığını xatırladır.

Baş yazarın sözlərinə görə, elə təkcə buna görə onları ürəkdən təbrik etmək lazımdır: "Onların gününü ildə bir dəfə olsun qeyd etmək lazımdır. Bizə sizin əziyyətinizi çəkmək xoşdur. Əlimizdən gələn olsaydı, xanımlar üçün daha çoxunu edərdik".

**Bundan sonra R.Arifoğlundan fantastik bir arzu gəldi. Baş yazar dedi ki, əslində "Yeni Müsavat" lider bir qəzet kimi formalaşıb və bu liderliyin fonunda xanım əməkdaşlara daha yüksək maaş verməyi istərdi:** "İstərdim ki, xanımlar ayda 5 min manat maaş alsın. Bizə normal reklam verilsə, bu reklam piroqundan haqq etdiyimiz payı ala bilsəydik, təbii ki, başda xanımlar olmaqla, hamıya yüksək maaş verilməsini istərdik. Xanımlara 5 min, kişilərə 10 min..."











Gülüşürük. Arzularda belə kişilər bizdən bir addım öndədir. Spontan atmacaları ilə hər zaman fərqlənən siyasi yazarımız Etibar birdən təəccüblə deyir: "Sayları da çoxalıb ee. Keçən il bundan daha az idilər...."

Heyətə diqqətlə baxan baş direktorumuz Ələsgər bəy də təsdiqləyir. Deyir ki, bu il xanım əməkdaşların sayı keçənilkindən daha çoxdur. Heyətə daha 3 xanım əməkdaş qatılıb son bir ildə: "Kollektivdə xanım əməkdaşların çoxluğu hər zaman estetika deməkdir"...

**Baş yazar arzularına davam edir. Bol ruzi, sevinc, xoşbəxtlik, bir qadının arzulayacağı səadət dolu günlər diləyir qızlarımıza. Daha bir vədi isə belə olur ki, işdir, devalvasiya sərtləşsə, redaksiya ixtisar seçimi qarşısında qalsa, xanım əməkdaşlar ixtisar olunanlar arasında olmayacaq:** "Mənim daha bir təklifim var. Bu gün redaksiyanın kişi əməkdaşları yazı yazıb, onun altına xanımların imzasını qoysunlar, qonorar da xanımlara yazılsın".

**Redaktor Zahid Səfəroğlu** isə qadınların dünyadakı ən gözəl sözləri haqq etdiyini dedi.

**Daha bir redaktorumuz Elşad Məmmədli redaksiyadakı xanımları ailə üzvü kimi gördüyünü dedi:** "Ailə üzvlərimizi gündə cəmi 3-4 saat görürük. Amma burdakı xanımları günün yarısı boyunca. Qayğılarımız da, sevinclərimiz də ortaq olur. Onlarla çox doğmalaşmışıq".

Beləcə, tort kəsilir, çay süfrəsi ətrafında daha bir bayram təbriki yekunlaşır. Və bir daha aydınlaşır ki, bu, bəzi kişilərin düşündüyü kimi, qorxulu, gərəksiz, mənasız... bir bayram deyil. 365 günün bir saatını zərif cinsin nümayəndələrinin təbrikinə həsr etmək, onları xoş sözlərlə sevindirmək, sadəcə, estetikadır. Bayram isə bunun üçün bir bəhanə...

**Bayramınız mübarək, əziz xanımlar....**

❑ Sevinc TELMANQIZI

# Dolların qalxmasının səbəbləri - ekspertlər izah edir...

## Onların sözlərinə görə, Mərkəzi Bank bu cür artımlarla manatı real vəziyyətinə gətirib çıxarmaq istəyir...

**Son günlər milli valyuta yenidən dollar qarşısında dəyər itirməkdədir. Azərbaycan Mərkəzi Bankı (AMB) martın 7-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. USD/AZN rəsmi məzənnəsi martın 7-nə 1,6105 səviyyəsində müəyyən olunub. Ekspertlər isə bildirirlər ki, əslində bu da üzən məzənnə deyil. Yəni manat hələ də inzibati yollarla tənzimlənir. Sadəcə, Mərkəzi Bank bu cür artımlarla manatı real vəziyyətinə gətirib çıxarmaq istəyir.**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, baş verənlər süni şəkildə edilmir: "İqtisadiyyatımızda milli valyuta yoxdur, azalıb. Yəni Mərkəzi Bank banklara milli valyutada kredit verirdi, iqtisadiyyatı pulla təmin edirdi. Sadəcə, banklar yenə qaçdılar və əldə etdikləri manatı dollara çevirməyə başladılar. Bu da ondan irəli gəlir ki, Mərkəzi Bank bankları lazımi qaydada idarə edə bilmir. Kreditləri təyinatlı şəkildə verə bilmir. Əslində hesab etmirəm ki, burada nəsə sünidir. Sadəcə, bir müddət əvvəl dövriyyədə milli valyuta azalmışdı, kurs bir az düşmüşdü. İndi isə yenə milli valyuta buraxıldı, dolların kursu yenə qalxdı. Amma kursu yenə də Mərkəzi Bank inzibati metodlarla zorla saxlayıb. Bunun iqtisadi marağı da tam aydındır. Mərkəzi Bank bu dəqiqə manatı tam buraxsa, o deməkdir ki, üçüncü kəskin devalvasiya olacaq. Bank sistemi də tam çökə bilər. Bu səbəbdən də bu addımı atmır".

**Ekspert Fikrət Yusifov isə musavat.com-a bildirib ki, əslində dollar qalxmamalıdır:** "Bu gün dünya bazarlarında neftin qiymətlərinin qalxdığı bir dönəmdə, psixoloji baxımdan dolların məzənnəsi ən azından sabit qalmalı idi. Neft qiymətlərinin artımında son günlər müşahidə edilən tendensiya davamlı olacağı təqdirdə isə dolların ucuzlaşacağı gözləniləndir. Son bir aya yaxın müddət ərzində dünya bazarlarında neftin qiymətləri 26 faizdən çox qalxıb. Əgər bu proses bir müddət də davam edərsə, bu halda dolların ucuzlaşması labüddür. Hesab edirəm ki, son həftə ərzində dolların məzənnəsində baş verən dəyişiklik, yəni onun manata nisbətən bir neçə qəpik bahalaşması, manatın üzən məzənnəyə keçdiyi bir şəraitdə normal qarşılanmalıdır. Çünki onun bugünkü məzənnəsini əsasən bazar özü müəyyən edir. Bazar isə bəzi hallarda real ola biləcək vəziyyəti olduğu kimi əks etdirməyə bilər. Yəni bazardakı real olan vəziyyətə psixoloji amillər də öz təsirini göstərə bilər. Ona görə son günlər dolların bahalaşması ilə baş verən prosesləri daha çox psixoloji amillərin mövcudluğu ilə əlaqələndirirəm".



Ekspertlərin sözlərinə görə, ölkədə məzənnə inzibati qaydada, Mərkəzi Bankla hökumətin razılığı əsasında müəyyən olunur. Büdcə xərcləmələri artdıqca, büdcədən ayrılan vəsaitlər artdıqca, investisiya layihələrinə, bir çox başqa xərcləmələrə büdcənin açılması prosesi baş verdikcə, manatın məzənnəsinə təsir göstərir. Çünki ölkədə iqtisadiyyatın böyük əksəriyyəti büdcə xərcləmələri ilə formalaşdırılır, büdcə xərcləmələrində artım müşahidə olunur, xərclər artır. Artıq bir çox layihələrə vəsaitlərin ayrılması prosesi gedir. Bu səbəbdən də manata da təzyiqlər yüksəlməyə başlayıb. Bu tendensiya getdikcə də artacaq. Çünki ölkənin idxaldan ciddi asılılığı var, ölkədən ciddi valyuta çıxışı var. Müxtəlif formalarda valyuta çıxışı var, həm idxal məhsullarının dəyərini ödəmək üçün, həm kapital axını şəklində, həm fərdi şəkildə çıxış var. Fərdi şəkildə də ölkədən kapital axını davam edir. Bank sektorunda olan problemlər, bank sektorunun dayanıqsız olması, güvənsiz durumu getdikcə də artdığından, insanlar banka deyil, daşınmaz əmlaka və valyutaya üstünlük verməyə başlayırlar. Ekspertlərin fikrincə, bu tendensiya davamlı olduqca, idxaldan asılılığın yüksək səviyyədə olduğunu nəzərə alaraq, gəlirlərin də azalması fonunda, təbii ki, manata basqılar artacaq. Həmçinin bildirilir ki, ancaq həm hökumət, həm Mərkəzi Bank iki kəskin devalvasiyadan bir dərs çıxarıb. Bunun iqtisadiyyata ciddi zərbə vurduğunu anlayıblar. İndi yumşaq formada bu prosesi aparmağa çalışacaqlar. Yəni günlük artımlarla, məzənnənin daha rahat şəkildə dəyişməsini kəskin dəyişmələrdən yayınmağa çalışacaqlar. Bu tendensiya getdikcə davamlı olacaq.

❑ Röya RƏFİYEVA

# Bu gün Yel çərşənbəsidir

**Bu gün Boz ayın üçüncü çərşənbəsi - Yel çərşənbəsidir. Yel çərşənbəsinə el arasında "küləkli çərşənbə", "külək oyadan çərşənbə", "yelli çərşənbə" də deyilir. Bu çərşənbə yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Əgər torpaq və su insan yaradılışının maddi əsasını təşkil edirsə, od və yel kənar vasitəçi statusunda çıxış edir. Qədim etiqadlarda qeyd edilib ki, torpağın altında - "qara nəhrdə" yatmış dörd cür külək Yer üzərinə çıxaraq müxtəlif libaslarda özünü göstərir. Mifologiyamızda ağ yel - ağ, qara yel qara, xəzri - göy, gilavar - qırmızı libasda təsvir edilir. Yel çərşənbəsi günü yel bu dörd oxşar elementlə birləşib dünyanı dolaşır, gəzib oyanmış suyu, odu hərəkətə gətirir. Tədqiqatlara görə, Yel çərşənbəsində əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. İnanclara görə, Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət edilir...**

Yel Azərbaycan mifik təfəkküründə yol göstərən, bələdçi rolunu yerinə yetirir. İnanclara görə, çərşənbə axşamları Tanrı ancaq xoş sözləri eşidir. Qədim adətə görə, bu çərşənbədə qəfəsdə saxlanılan quşları və heyvanları azadlığa buraxmaq lazımdır. Yel çərşənbəsi günü tonqallar qalanır, evlərdə südlü plov və ya bulğur aşı bişirilir. Süfrəyə daha çox quru meyvə və dənli bitkilərdən hazırlanmış çərəzlər düzülür. Qadınlar axır çərşənbə üçün hazırlıqlar görürlər. Ev əşyaları sürtülüb təmizlənir, xalça-palaz çırpılır, yorğan-döşək havaya verilir. Xanımlar uşaqlar üçün təzə paltar biçib-tikir. Bu gün bir qarış böyümüş səməninin ortasına qırmızı qumaş bağlanır.

Ümumiyyətlə, çərşənbələrin dörd ünsürlə adlandırılmasının müasir dövrün ənənəsi olması, yəni, bu adların sonradan qoyulması barədə fikirlər də var. Tədqiqatçıların araşdırmalarına görə, qədimdən, Azərbaycanın müxtəlif regionlarında çərşənbələrə fərqli adlar verilib. Ən geniş yayılan ardıcıllıqlardan biri bu cürdür: 1) Yalançı çərşənbə; 2) Xəbərçi çərşənbə; 3) Ölü çərşənbəsi (və ya Qara çərşənbə, həmin gün qəbirlər ziyarət olunur); 4) İlaxır çərşənbə.

**Yel çərşənbəniz mübarək!**

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 54 (6375) 8 mart 2016

# İcra başçısının xidməti maşınının mübhəm fotoları

## Başçının avtomobili ilə bağlı yayılan şəkillərə və xəbərə görə qurumdan “Yeni Müsavat”a açıqlama verildi; “O fotolardan biri bizə aiddir, amma”

**Bəzi KİV-lərdə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun xidməti avtomobilinin fotoları yayılıb və bu fotolar geniş səs-küyə səbəb olub.**

Məsələ burasındadır ki, reportyor.org saytı iddia edir ki, Mingəçevirin icra başçısının xidməti avtomobilində, salonda, qabaq oturacaqda oturan xanım açıq-saçıq hərəkətləri ilə ətrafdakıların diqqətini cəlb edib. Əl-qol hərəkətləri, ucadan oxudulan pop musiqi səsi, gülüş sədaları...

Sayt sonda qeyd edir ki, onlarda başçısının xidməti avtomobilinin hansı istiqamətdə və hansı villaya getməsi ilə bağlı videogörüntülər var və bu görüntüləri növbəti yazıda təqdim edəcək.

**Məsələnin bu qədər böyük səs-küyə səbəb olmasını nəzərə alaraq, Mingəçevir Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxladıq. İcra hakimiyyətinin ictimai-siyasi şöbəsinin müdir müavini Sahib Əliyev musavat.com-a açıqlamasında bildirdi ki, həmin fotodakı kadrlar saxtadır, həqiqəti əks etdirmir:**



“Tbilisi prospektindən Dərnəgül istiqamətinə gedən avtomobil həqiqətən də bizim xidməti maşındır. Digər fotoda olan avtomobil isə quraşdırmadır, saxtadır. Onun bizə heç bir aidiyyəti yoxdur. Üstəlik, fotoya baxanda hiss edilir ki, yay aylarında çəkilib. Pəncərələr açıqdır, hava da günəşlidir.

Cənab başçının sürücüsü and içir ki, heç qızını belə xidməti maşınına əyləşdirmir. Belə saxta məlumatların yayılması ilk dəfə deyil. Biz belə hallarla çox rastlaşmışıq. Məsələn, şəhərdəki Şəhidlər Xiyabanında təmir işləri aparılan zaman foto çəkib, “İcra başçısı şəhidlərə hörmətsizlik edir” başlıqlı yazı yazıblar. Hansı ki, həmin yerdə abadlıq işləri aparılıb. Daha da yaxşı hala gətirilib".

***- Sayt qeyd edir ki, “Xidməti avtomobilinin hansı istiqamətdə və hansı villaya getməsi ilə bağlı videogörüntülər var və bu görüntüləri növbəti yazıda təqdim edəcək”. Bu haqda nə deyə bilərsiniz?***

- Bu sayt qəsdən saxta məlumatlar yayıb. Bu, üstüörtülü şəkildə rüşvət istəməkdir. Yəni deyirlər ki, “Gətirin bizə pul verin, videonu yaymayaq, səsimizi kəsək”. Bunun başqa mənası yoxdur. Onlar şantaj edirlər.

***- Rəsmi olaraq hansısa bir tədbir görmək fikriniz varmı?***

- Biz Mətbuat Şurasına rəsmi müraciət edəcəyik. Bundan sonra əgər ehtiyac olsa, digər rəsmi qurumlara da, hüquq-mühafizə orqanlarına da müraciət edəcəyik.

❑ Məhəmməd TÜRKMƏN

# Zahid Oruc siyasətin radarlarında niyə görünməz olub...

## Deputatın qəfil susması ortaya suallar çıxarıb; Milli Məclisin son iclasında iştirak etməyən millət vəkili haqda həmkarları da heç nə bilmir; “ölkənin ən hərəkətli siyasətçisi niyə susur” sualı düşüncələrə hakim kəsilib



Zahid Oruc

**Azərbaycan siyasətinin istər iqtidar, istər müxalifət cəbhəsində, istərsə də neytral düşərgədə ən aktiv siyasətçilərindən biri deputat Zahid Orucdur. O, ümumiyyətlə, deputat olduğu gündən daim mətbuatla sıx işləyib, vaxtaşırı öz fikirlərini bu və ya digər formada cəmiyyətə çatdırıb. Mediaya ən açıq deputatlardan olub.**

Onu siyasətçi kimi son dərəcə maraqlı edən davranışları isə 2015-ci ilin 21 dekabrındakı ikinci devalvasiyadan sonrakı bir ay ərzində oldu. Heç kəsin gözləmədiyi halda iqtidarı və şəxsən prezidenti davakar şəkildə müdafiə eləyən Zahid Oruc birdən-birə Azərbaycan hökumətinin ayrı-ayrı fərdlərini, hökumətin atdığı bəzi addımları sərt formada tənqid eləməyə başladı. Hətta rayon icra hakimiyyəti başçılarını hədəfə alaraq bəyan etdi ki, icra başçıları Alp dağlarından enib rayonlarına, xalqın içinə gəlsinlər *(o, bu ifadəni yeni il tətili vaxtlarında işlədib-red.)* Eyni zamanda ölkənin ən iri monopolist qida sənayesi şirkəti olan “Azərsun”u belə ağır ifadələrlə tənqid eləməsi cəmiyyətdə Zahid Orucun personasına marağı həddən artıq artırdı. İlərdir hakimiyyəti müdafiə elədiyi üçün ona olan müəyyən ictimai qınaq belə aradan qalxmağa başladı.

Həmin vaxt Z.Orucun sərt tənqidi mövqeyə keçməsinin hakimiyyətin özünün xüsusi bir texnologiyası olduğunu deyənlər də vardı. Bu iddiada olanlar qeyd edirdilər ki, Zahid Oruc müxalifətin hakimiyyətə başlada biləcək hərəkatı dayandırmaq üçün xüsusi texnologiya çərçivəsində bu missiyanı öz üzərinə götürüb. Gerçəkdən də Z.Orucun həmin dövrdəki fəaliyyəti cəmiyyətdə həm bir çaşqınlıq yaratmışdı, həm də müxalifətin belə mandatını əlindən almışdı. O, iqtidarın ictimai qıcıq yaradan az qala bütün addımlarını sərt dillə tənqid atəşinə tuturdu.

Bəziləri isə deyirdi ki, bu, hakimiyyətdaxili qrupların oyunudur. Hər halda, insaf naminə qeyd eləmək lazımdır ki, Zahid Oruc o dövrdə kifayət qədər xalqın ürəyindən xəbər verən və obyektiv yol tutaraq ictimaiyyətin tərəfində oldu. Oliqarxların, məmurların mövqeyini müdafiə mövqeyindən birmənalı şəkildə imtina elədi. Bu, Zahid Oruc mövqeyində olan bir adam üçün fədakarlıq sayıla biləcək addım idi.

Son günlər isə Zahid Orucun səsi nə Milli Məclisdən, nə də mediadan, nə də sosial şəbəkələrdən gəlir. Əcəba, Zahid Orucun başına bir işmi gəlib? Günlərlə biz onu arasaq da, telefonuna zənglər etsək də əlaqə saxlamaq mümkün olmur. Azərbaycan siyasətinin ən dinamik deputatı siyasətin radarlarında niyə itib, onun başında bir iş yoxdur ki?

Zahid Oruc haqqında məlumat əldə eləmək üçün Milli Məclisə müraciət etdik. Bizə cavab verildi ki, Z.Oruc Milli Məclisin keçən həftə keçirilən iclasına gəlməyib. Nədən gəlmədiyi bəlli deyil.

**Onun üzvü olduğu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Fərəc Quliyev də “Yeni Müsavat”a bildirib ki, Zahid Oruc Milli Məclisin son iclasına gəlməmişdi:**

“Zahid Oruc ən fəal deputatlardan biridir. Çox bilikli, hazırlıqlı, intizamlı deputatdır. Yeni sessiyada cəmi bir iclası buraxıb. Keçən həftə keçirilən iclasda yox idi. Belə hal mümkündür, hər bir deputatın hərdən iclasda iştirak etməməsinə rast gəlinməsi normaldır. İnsanın seçicilərlə görüşü, hansısa tədbirlərdə iştirakı, səhhətində problemləri ola bilər. Zahid Orucun son iclasda nədən iştirak etməməsi mənə bəlli deyil. Zahid bəy komitəmizin də iclaslarında müntəzəm iştirak edən deputatdır. Son vaxtlar isə komitənin iclası olmayıb”.

Millət vəkilinin facebook səhifəsinə də göz gəzdirdik. Məlum oldu ki, fevralın 10-da saytlardan biri onun Bərdədə seçiciləri ilə görüşündən xəbər yayıb.

**“Yeni Müsavat” olaraq inanırıq ki, Z.Orucla bağlı pis bir şey baş verməyib. Onun yaxın günlərdə yenidən öz missiyasını davam etdirəcəyinə əminik.**

❑ Etibar SEYİDAĞA

# Qənirə xanımın haqq etdiyi bir neçə cümlə...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**“...Səhər tezdən balaca Röyamızın səhhəti ilə bağlı baş həkimlə danışdım, uşağın özü ilə söhbət etdim. Sonra Röyanı əməliyyata yola saldıq. İndi isə Azər Xanlaroğlunun səhhəti ilə ağlı 1 saylı Şəhər Kliniki xəstəxanasına gəlmişik... Burdan isə Xocalıdan olan Durdanə bacımın kitab təqdimatına gedəcəyəm”...**

Bu, martın 7-də doğum günü olan Qənirə Paşayevanın həmin gün üçün iş planıdır. Saytlardan birinə verdiyi açıqlamada deyib bunu...

Onunla şəxsi tanışlığımız 2001-ci ilə təsadüf edir. Onda jurnalist idi, Press-Klubda keçirilən hansısa bir tədbirdə tanış olmuşduq. Daha sonra həmkar kimi münasibətlərimiz dost səviyyəsinə qədər yüksəldi...

Jurnalistikadan yüksək vəzifəyə gedən, deputat seçilən xeyli həmkarımız olub. Maləsəf, onların əksəri bir pillə yüksələndən sonra əski yoldaşlıqları - tədbir məkanlarında, konfrans zalları, məhkəmə binaları önlərində bir peraşkini ikiyə bölüb yeyən jurnalist dostlarını unudublar, zənglərinə cavab verməyiblər, çevrədən də tam ayrı düşüblər. Əlbəttə, istisnalar hər zaman var və BİZİM Qənirə Paşayeva da barmaqla sayılacaq qədər istisnalardan biridir. Heydər Əliyev Fondunun sözçüsü kimi, daha sonra - 2005-ci ildən özü bu yana deputat olduğu illərdə barəsində belə bir imic formalaşdırıb: “Kaş çox yox, 10-ca belə deputatımız, ictimai xadimimiz olaydı”...

Əlbəttə, o, təkcə jurnalistlərin deyil, lazım olan anda ona ehtiyac duyan hər kəsin yanında olur. Onlarla nümunəsi var bunun: icra başçısının zülmündən bezib “intihar körpüsü”nə çıxan, övladı ağır durumda olan vətəndaş, müalicəyə ehtiyacı olan qazi, təzyiqə məruz qalan jurnalist və s. ilk olaraq onu arayır. Bunun çox sadə bir səbəbi var: Qənirə xanım təkcə seçicilərindən, jurnalist həmkarlarından deyil, bütün ölkə boyunca sadə vətəndaşlardan ayrı düşmür, xalqın içində olur, insanların ona əli çatır, ünü yetir... O isə öz növbəsində əlindən gələn nə varsa, əsirgəmir.

Şəxsən özüm azı 4 epizodda - hansı ki, onların hamısında söhbət insan həyatından gedirdi - onun necə fədakar bir insan, dost olmasına şahidlik etmişəm. Zəng edib, birinci sözü bu olub: “Nə edə bilərəm, hara gəlim?” Təcili olaraq özünün gücü çatan ilkin addımları atıb, daha sonra məsələnin həlli üçün ölkə prezidentinə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya yazılan müraciətlərin ünvanına maksimum tez çatması üçün əlindən gələni edib. Bu şəxsə ölkə rəhbərliyində böyük etimad yarandığı göz önündədir: onun arxasınca düşdüyü bütün yardım kampaniyalarına dövlət səviyyəsində dəstək verilir. Çünki inam, etimad qazanıb...

“Yoruldum” demədən çalışır bu insan. Bəzən heyranlıqla izləyirəm onun iş qrafikini. Bakıdan İstanbula uçur, orada bir tədbirdə iştirak edir, fotoları facebook səhifəsində görüntülənir. Təxminən 4-5 saat sonra görürsən ki, Qənirə Paşayeva artıq Avropa ölkəsindədir, indi də oradakı tədbirdən fotolar yayımlanır. Axşam yatırsan, səhər ayılıb saytlardan xəbər tutursan ki, Qənirə Paşayeva artıq Tovuzdadır, seçiciləri ilə görüşür. Axşam isə görürsən ki, Bakıda hansısa bir tədbirdə çıxış edir...

Düzü, adam tərifləməyə adət etməmişəm, amma doğum günündə, həmçinin 8 mart ərəfəsində ona layiq olduğu, ən əsası, haqq etdiyi bir neçə kəlmə xoş cümlələr yazmaq mütləqdir. İnsanlara layiq olduğu sözləri deməkdən çəkinmək lazım deyil. Əksinə, onların gərəkli, lazımlı olduqlarını bir daha hiss etdirmək üçün özəl günlərdə bunları söyləmək zəruridir.

Doğum günün mübarək, Qənirə Abla! Allah ürəyincə versin! Nə yaxşı varsan!

YENİ MÜSAVAT
N 54 (6375) 8 mart 2016

**Bu yaxınlarda Ümid Partiyasında yeni təyinatlar oldu. İsmayıl Mirzakir oğlu Mirzəcanov Ümid Partiyası sədrinin inzibati ərazi və bələdiyyə məsələləri üzrə sədr müavini təyin edildi. İsmayıl Mirzəcanov partiyanın mətbuat xidmətinin suallarını cavablandırıb. Həmin müsahibəni oxuculara təqdim edirik:**

# "Əhalinin taleyi ilə bağlı qərarları xalqın seçdiyi qurumlar verməlidir"

## İsmayıl Mirzəcanov: "Biz hər kəsin haqqını tanıyan inzibati ərazi vahidində və o cümlədən dövlətin idarə olunmasında unitarlıq prinsipinə üstünlük verən komandayıq"



***- Partiyada bu sahə üzrə müavinliyin yaradılması hansı zərurətdən irəli gəlirdi? Gələcək planlarınız, strategiyanız haqda nə deyə bilərsiniz?***

- Qeyd etdiyiniz kimi, inzibati ərazilər və bələdiyyələrlə iş üzrə sahə partiyamız üçün də yeni bir vahiddir. Əvvəllər bu tipli təyinatlar olmayıb. Mövcud hakimiyyətin bələdiyyə sistemini iflic vəziyyətə salmasının nəticəsində biz bu sahənin mövcudluğunu vacib bildik. İlk olaraq fəaliyyətimizi beynəlxalq konvensiyalara uyğunlaşdırmağı planlaşdırırıq. Bununla yanaşı olaraq hazırda partiyamızda bələdiyyə strukturlarında çalışan, bələdiyyələrə seçilmiş insanlar var, onlarla mərkəzləşdirilmiş qaydada işlər aparacağıq. İndiyə qədər heç bir partiyada olmayan bir üsulla - hər bir ərazi vahidinin özünün xüsusiyyətləri, özəllikləri, əhali sayını, bələdiyyə subyekt saylarını və digər göstəricilərini, hətta sosial obyektlərinə qədər, məktəblərinə qədər dəqiq araşdırıb ümumi bir qənaətə gələcəyik və region haqqında tam şəkildə təsəvvür formalaşdıracağıq ki, sabah dövlət idarəçiliyində biz bunların hamısını artıq planlı şəkildə həyata keçirə bilək. Hər bir regiona fərdi yanaşmamız var: onun əhalisinin məşğuliyyət növündən tutmuş psixoloji vəziyyətinə qədər bir qrafik tutulacaq. Məsələn, dinin hansı cərəyanına hansı bölgələr hansı şəkildə meyl edir, hansı rayonda dini təriqətlər necə inkişaf edib, necə istiqamət götürüb. İnsanların təhsilə münasibəti, təhsilin hansı növünə daha çox üstünlük verən regionlar var və ya əksinə hansı kəndlərdə uzun illərdir ali məktəblərə daxil olmayanlar, təhsildən yayınmalar var və s. Bu tipli problemlər çoxdur və bu problemlərin hamısını cəmləyib partiya təlimatına uyğun ortaq bir sxem yaradacağıq. Bizim cəmiyyətdən gizli, qovluğa yığılmış, tozlanmış, söz yığınından ibarət fəaliyyətimiz olmayacaq. Cəmiyyət üçün, kütləvi informasiya vasitələri üçün açıq olacaq. Biz iş gördükcə cəmiyyət mütəmadi olaraq məlumatlandıracağıq.

***- Bələdiyyə seçkiləri öncəsi Ümid Partiyası bir sıra yeni təkliflərlə çıxış etdi. Buraya bələdiyyələrin statusunun artırılması, böyük şəhər bələdiyyələrinə sədrlərin seçilməsi və bir sıra başqa təkliflər daxil idi. Bunlarla bağlı nə deyə bilərsiniz? Daha hansı yeni təkliflər irəli sürməyi planlaşdırırsınız?***

- Yeni idarəetmə vahidi olduğu üçün indi xüsusi proqram üzərində işləyirik. Əsas məqsədimiz sabah hakimiyyətə gələrkən dövlət idarəçiliyində çox ciddi islahatlar aparmaqdır. Seçkili orqanların səlahiyyətlərini və imkanlarını genişləndirməkdir. Ümumiyyətlə, regionların idarə olunmasında bələdiyyə ən vacib strukturlardan biridir. Planlarımızda təbii ki, iri şəhər bələdiyyələrinin seçilməsi də var. Qeyd edim ki, Azərbaycan Avropa Şurasına daxil olarkən bu öhdəliyi öz üzərinə götürüb və bu öhdəliyi mütləq şəkildə yerinə yetirməlidir. Bələdiyyə məclislərinin formalaşması, kommunal və iaşə xidmətlərinin bələdiyyə sistemində cəmləşməsi, bələdiyyə torpaqlarının istifadə formaları, məsələn, hərraca çıxarılan torpaqların icarəyə verilmə və ya satılma prinsipləri və bu kimi bütün məsələlər proqramımızda öz əksini tapacaq. Bu istiqamətdə proqramımız çox geniş və mükəmməl olacaq. Bir Avropa dövləti bu sahədə hansı üstünlükləri əldə edibsə, hakimiyyətə gələcəyimiz zaman həmin Avropa dövlətinin təcrübəsindən yararlanmaq başlıca prinsiplərimizdən biridir. Biz siyasi coğrafiya olaraq Avropanın tərkibindəyik və buna uyğun idarəçilik formalarına üstünlük verməliyik.

***- İnzibati ərazi vahidlərinin dəyişdirilməsi, forma olaraq fərqli şəklə salınması ilə bağlı müxtəlif fikirlər var. Hətta quberniya modeli təklifini irəli sürənlər də var. Bununla bağlı nə deyə bilərsiniz?***

- Regionların idarə olunması ilə bağlı təkliflərimiz də çox effektiv və tam səmərəlidir. İnzibati ərazi vahidlərinin dəyişdirilməsi, forma olaraq fərqli şəklə salınması, bölgülərin dəyişdirilməsi və s. nəzərdə tutulmayıb, indiki qaydada saxlanılacaq. Lakin idarəetmə metodları demək olar ki, tamamilə yenilənəcək. Quberniya modeli təklifini irəli sürənlər var. Təəssüf ki, bu fikri irəli sürənlər qonşuluqda hansı ölkələrin olduğunu, Azərbaycanla bağlı hansı separatçı niyyətlərə düşdüklərini, zaman-zaman bu separatçı niyyətlərdən maksimum istifadə edib yararlandıqlarını unudurlar. Bəlkə quberniya modeli federallaşma və ya ştatlar modelinə uyğun ola bilər. Ancaq Azərbaycan konstitusiyaya görə unitar dövlətdir və buna görə də düşünürəm ki, quberniya modelini Azərbaycanda tətbiq etmək düşmənin dəyirmanına su tökməkdir. Biz coğrafiyada tək yaşamırıq. Ətrafımızda kifayət qədər ölkəmizin daxili işlərinə əl uzadan dövlətlər var. Biz elə bir model tətbiq edib, elə bir mühit yaratmalıyıq ki, onların daxili siyasətimizə müdaxilə ehtimalları sıfıra endirilsin. Əlavə olaraq Azərbaycan ərazi olaraq o qədər böyük deyil ki, ştatlaşma və ya quberniyalaşma modelinə keçsin. Ölkədə etnik milli kökənli insanların sayı o qədər çoxluq təşkil etmir ki, quberniyalaşmaya gedərək onların haqqlarının tanınması yönündə bir proses getsin. Biz hər kəsin haqqını tanıyan inzibati ərazi vahidində və o cümlədən dövlətin idarə olunmasında unitarlıq prinsipinə üstünlük verən komandayıq. Biz Azərbaycanın dövlətçiliyinə zərbə vuracaq addımlara daxildə zəmin yaradacaq heç bir addım atmayacaq və xarici faktorların buna müdaxiləsi üçün heç bir halda imkan yaratmayacağıq.

***- Bunu necə edəcəksiniz?***

- Az öncə qeyd etdiyim kimi, regionların idarəetmə metodlarında böyük dəyişikliklər olacaq. İcra hakimiyyətlərinin əksər funksiya və səlahiyyətləri bələdiyyələrə, seçkili orqanlara veriləcək. İcra hakimiyyətləri inzibatçılıq kimi məsuliyyət yükündən azad olunaraq yerini xalqın seçdiyi şəxslərə verəcək. Onun torpaq üzərində alver etmə imkanları minimuma endiriləcək, hətta deyərdim ki, ümumiyyətlə icra strukturları bu tipli məsələlərə qarışmayacaq. Regionların dotasiya məsələsi büdcədən minimuma endiriləcək və hər bir bölgənin öz spesifik xüsusiyyətləri araşdırılaraq, iqtisadiyyatın, kənd təsərrüfatının, sənayenin, hətta yüngül və ağır sənayenin hansı sahəsini bölgələrdə təşkil etmək mümkündürsə, bununla bağlı mükəmməl təkliflərimiz olacaq. Regionlar elə istiqamətdə inkişaf proqramına daxil ediləcək ki, hər kəs özünü saxlayacaq və mərkəzə vergi ödəyəcək. Düşünürəm ki, xalqın, əhalinin taleyi ilə bağlı qərar vermək məsuliyyəti elə xalqın seçdiyi qurumlara verilməlidir. Beləliklə, qurumlar tam olaraq xalqa xidmət edəcək.

Vəzifəmiz hakimiyyətə gələrkən dövlətin inzibati ərazi vahidlərinə daxil olan subyektlərin necə idarə olunmasının proqramını bu gün işləmək və partiya strukturlarını buna uyğunlaşdırmaqdır ki, sabah hakimiyyətə gələrkən həm kadr bazası nöqteyi nəzərindən, həm də proqram və islahatlar nöqteyi nəzərindən tam şəkildə mükəmməl hazır olaq.

# İqbal Ağazadə ölkə xanımlarını təbrik etdi



*Ümid Partiyasının sədri İqbal Ağazadə 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan xanımlarını təbrik edib.*

*Təbrikdə deyilir:*

***- Hörmətli xanımlar, əziz analar və bacılar, sizi 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm!***

***Əziz qadınlar, sizlərə uzun ömür, cansağlığı, sevdiklərinizlə birlikdə firavan, xoşbəxt və rahat həyat sürmənizi arzulayıram. Sizlər buna layiqsiniz və öz ağlınızla, mətanətinizlə, sədaqətinizlə, cəsarətinizlə, əqidənizlə bunları haqq etmisiniz.***

***Son illər bütün dünyada olduğu kimi, ölkəmizdə də qadınların ictimai-siyasi və mədəni proseslərdə rolu getdikcə artmaqdadır. Bizim üçün xüsusilə xoşdur ki, Azərbaycan qadınları da ölkənin və cəmiyyətin həyatında getdikcə daha fəal şəkildə iştirak edirlər.***

***Ananın, qadının cəmiyyətdəki yeri əvəzedilməzdir. Qadınların olduğu yerdə ədalət, əxlaq, fayda, qayda -qanun, cəmiyyətin inkişafı var. Biz elə bir cəmiyyət qurmalıyıq ki, məhz cəmiyyət bu dəyərlərə, bu prinsiplərə söykənsin. Bunun üçün sizlərin daha aktiv , qurucu, yaradıcı, prinsipial olmağınızı və enerjinizin, zamanınızın bir qədər çoxunu bu işlərə ayırmağınızı arzulayıram.***

***Bir daha sizləri bayram münasibətilə təbrik edirəm!***

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 54 (6375) 8 mart 2016



# Xeyriyyə riyakarlığı

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud fondun içində fond açmaq

**Azərbaycanda dövlətin funksiyalarının anlaşılması bir çox hallarda üzə çıxır. Buna tipik örnək sosial şəbəkədə rastlaşdığım bir hal idi: hansısa qeyri-hökumət təşkilatının nümayəndəsi fəxrlə yazmışdı ki, mən prezidentə xidmət etməyə hazıram. Halbuki bizim qanunlara görə prezident xalqın xidmətçisidir.**

Dövlətin əsas funksiyalarından biri sosial müdafiədir. Kimsəsizlərin, imkansızların, fiziki çatışmazlığı olanların qulluğunda durmaq dövlətin işidir. Ancaq azərbaycanlılar nə edirlər? Formal olaraq qurduqları dövlətdən bu cür işləri düzgün görməyi tələb etmək yerinə hansısa müğənniyə, şairə göstərilən tibbi yardımı şişirdirlər. "Sağ olsun Filankəs xanım, xeyriyyəçilik elədi, əməliyyat olunduq", "Burdan Behmənkəs müəllimə dərin minnətdarlığımı bildirirəm, narkozdan özümə gələndə gördüm durub başımın üstündə, dedi, möhkəm ol, yaxşı iynələr vurdurduq sənə" - bu tip xəbərlər mediada çox olur.

Azərbaycanda hələ 1999-cu ildə (!) tibbi sığorta haqda qanun qayırılıb. 17 ildir o qanun işləmir. Səbəb nədir? Çünki yapistlər tibbi sektora, həkimlərə, xalqa nəzarətin ciddi bir alətini itirmək istəmirlər. Əgər mənim tibbi sığortam olsa, əməliyyat üçün həkimə rüşvət verməyəcəm axı! Eyni zamanda, həkim də yaxşı maaş alacaq, hakimiyyətdən asılı vintcik, 4-5 ildə bir dəfə on manatlıq artıma həsrət yetim olmayacaq.

Bu yaxında bir nəfərlə bu temada mübahisə elədik. Yetərincə savadlı adam olsa da, dövlətin funksiyasını anlamırdı, deyirdi xeyriyyəçilik mütləq lazımdır, gərək biz hamımız kimsəsizlərə, imkansız xəstələrə əl tutaq və sairə. Əlbəttə, hansısa çox yüksək xərcli tibbi əməliyyata sığorta pulu çatmaya bilər, kiməsə müəyyən fond, bank hesabı yaradıb yardım eləmək də olar, ancaq bu işlər kütləvi hal almamalıdır. Kütləvidirsə, deməli, dövlətin quruca adı var. Axı dövlət özü mahiyyətcə nədir? Bizim ellikłə yaratdığımız, müəyyən funksiyaları həvalə elədiyimiz bir xidmət təşkilatıdır. Loru dildə desəm, Əhməd, Məmməd, Həsən yığışdılar, dövlət qurdular və bu dövlətə xarici müdaxilədən qorunmağı, sosial müdafiəni-filanı tapşırdılar. Əvəzində vergi verdilər - pul topladılar. İndi mən bir dəfə sosial məqsədlə geniş qrup şəklində pul topladımsa (vergilər), bunun bir faydası olmadısa, həmin pulu kimlərsə cibinə basdısa, ikinci dəfə xeyriyyə konsertinə gedib pul toplanmasında iştirakım nəyi dəyişəcək? Bu, bəzi yapistlər tərəfindən ikiüzlülük deyilmi? Vergilər Nazirliyi rüşvətxorluqla, Gömrük Komitəsi reketlə məşğuldur, sən də burda "xeyriyyə konserti" tamaşası oynayır, özünü gözə soxursan. Halbuki, üzvü olduğun deputatxanada o nazirlərin yaxasından yapışıb üzlərinə tüpürməli idin.

Bakı ətrafındakı bir kənddə başqa bir karikatur yardım obyekti açılmışdı. Geymədiyin paltarları gətirib ora qoyurdun, ehtiyacı olan gəlib aparardı. Bunun sanitar-gigiyenik təhlükəsini bir qırağa qoyuram. Bir neçə gündən sonra obyekt tam boşaldı - imkansızlar bütün geyimləri aparmışdılar. Başqa cür ola da bilməzdi, çünki bunu da dövlət, onun sosial müdafiə nazirliyi sistemli şəkildə etməlidir. "Sobes"lərin binasında geyimlərin təhvili yeri açmaq olmazmı? Ümumiyyətlə, dövlətin guya imkanı yoxdur beş-on manatlıq ucuz geyimlər alıb imkansızlara paylasın? Var. Sadəcə, bunu tələb eləməkdənsə geydiyin cırıq paltarla yardım reklamı yapmaq daha məqsədəuyğundur. Hələ işə bir "Allah rizası" söhbəti qatsan gələcəkdə o paltar yerini pir elan eləmək də olar. Yeri gəlmişkən, SSRİ dövründə imkansızlara məktəbli forması pulsuz verilirdi, belə dövlət proqramı vardı. İndi guya "analoqu olmayan" dövlət Formula-1 yarışından kəsib bunu edə bilməz?

Yenə xüsusi yazıram ki, "dövlət eləmir, biz eləyək" söhbəti lazımsızdır. Biz elə dövləti bu iş üçün qurmuşuq. Bizim fondumuz dövlətdir. Bina alınmayıbsa, dam yoxdursa, onun bir küncündə soyuqdan qorunmaq avara məşğuliyyətdir. İctimai-siyasi riyakarlığın bir növüdür.

# Bölgənin taleyini dəyişə biləcək ilginc gəlişmə

**Ötən sayımızda Rusiyanın Xəzər Hərbi Donanmasının Azərbaycana qarşı faktiki təcavüz planı hazırladığı haqda yazmışdıq. Jurnalist Andrey Şipilovun məqaləsində yer alan iddialara görə, Moskva dənizə "Murena" layihəli hava yastığı üzərində desant gəmisini buraxmaq niyyətindədir.**




Müəllifin qənaətincə, Rusiyanın dənizə buraxmağı planlaşdırdığı texnika sırf hücum xarakterlidir və onun yeganə təyinatı sahilyanı ərazilərin zəbtidir. Sitat: "İranla müharibə hazırda çətin ki, Putinin planına daxil olsun. Amma başdan-ayağa Türkiyəyə bağlı Azərbaycan tam mümkündür ki, hədəf olsun. Xüsusən də xatırlatmaq lazımdır ki,

# Türkiyə-Azərbaycan -İran ittifaqı yaranır - Rusiya əngəlləməyə çalışır

## Rusiya İranın arxasından çəkilir; Kremlin Xəzərdə təhlükəli təcavüz planlarının daha bir pərdəarxası; əzələ nümayişindən cənub qonşumuza da "pay" düşür, çünki...; Moskva Tehrana S-300 raket sistemlərinin verilişini dayandırdı

Rusiya Ermənistanı bir neçə yüz milyon dollar dəyərində silahla təchiz etməyə başlayıb".

Ekspertlər də Rusiyanın Xəzərdə öz hərbi qüdrətini, imkanlarını artırdığı qənaətindədir. Belə olan halda sual ortaya çıxır ki, Moskva Xəzər dənizində hərbi qüdrətini kimə qarşı artırır, gerçəkdənmi hədəf Türkiyənin əsas strateji müttəfiqi Azərbaycandır, yoxsa? Bu yerdə bir daha Moskvadan Bakıya rus emissarlarının *(baş nazirin müavini Dmitri Roqozin, xarici işlər nazirinin mavini Qriqori Karasin)* intensivləşən səfərlərini yada salmaq lazım gəlir. Şimal qonşumuz nədən narahatdı, görəsən?

***

**Təhlilçilərə görə, əslində Rusiyanın Xəzərdə hərbi gücünü artırması enerji resurslarının gələcək nəqli ilə bağlıdır. İş ondadır ki, TAP və TANAP layihələri artıq təsdiqlənib. Bakıda ötən həftə keçirilən böyük toplantıdan dərhal sonra Avropa Birliyi Rusiyadan yan keçən TAP layihəsini təsdiq edib.**

"Rusiya əlbəttə ki, bundan narahat ola bilər. Kremlin ən çox qorxduğu, çəkindiyi isə Türkmənistanın bu layihəyə qoşulmasıdır. Türkmənistanın qazı kifayət qədər çoxdur, eyni zamanda Türkmənistanın bu layihəyə qoşulması üçün Xəzərin dibi ilə boru xətti çəkilməlidir. Ona görə də ehtimal ki, Rusiyanın Xəzərdə əzələ nümayişi məhz onunla bağlıdır ki, Xəzəryanı ölkələrə, Türkiyəyə və Avropa Birliyinə bununla mesaj göndərir ki, Moskva Xəzərin dibi ilə boru xəttinin inşasına yol verməyəcək. Rusiyanın Xəzərdə ara-sıra hərbi manevrlər keçirməsi də əslində Türkmənistan qazının Avropaya çatdırılmasına mane olmaq məqsədi daşıyır" - deyib analitik Elxan Şahinoğlu .

Politoloqa görə, gələcəkdə TAP-ın genişləndirilməsi və bura başqa dövlətlərin də qazının qoşulması məsələsi aktuallaşarsa, Rusiyanın siyasəti də dəyişə bilər, çünki o halda bu kəmərlərlə Avropa bazarına çıxarılacaq qaz Rusiya təbii qazına real alternativ olacaq. Moskva isə belə perspektivi indidən əngəlləməyə çalışır. Söhbət həm də öz nəhəng qaz ehtiyatları ilə İranın da TAP-a qoşulmasından gedir.

***

Bu arada Türkiyə baş naziri Əhməd Davudoğlunun təzəcə başa çatan İran səfəri çərçivəsində Tehranla energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsinin müzakirəsi diqqət çəkir. Məlumatlara görə, tərəflər İranın TANAP-a qoşulmasının mümkünlüyünü xüsusi diqqətdə saxlayıblar. Müşahidəçilər isə bu danışıqları final mərhələ hesab edir və İranın TANAP-a qoşulmasını, faktiki, həll olunmuş sayırlar.

Yada salaq ki, İranın TANAP-a *("Şahdəniz 2" qazını Türkiyənin şərqindən qərbinə - Yunanıstan sərhədinə çatdıracaq Trans-Anadolu qaz kəməri nəzərdə tutulur)* qoşulmasına dair danışıqlar 2013-cü ildən gedir və daha çox Azərbaycan-İran formatında aparılırdı. Az öncə İranın neft naziri ilə SOCAR arasında müzakirələr aparılmış, Tehranın TANAP-a qoşulması istisna edilməmişdi.

Nəhayət, Davudoğlunun Tehranda apardığı danışıqlar həqiqətən kulminasiya sayıla bilər. Ekspertlərə görə, yekun kimi bu yaxınlarda Azərbaycan, İran və Türkiyə arasında üçtərəfli anlaşmanın əldə olunacağı gözlənilir. Bu xüsusda İran prezidenti Həsən Ruhaninin Əhməd Davudoğlu ilə görüşdən sonra söylədiyi və Kremli əsla məmnun etməyəcək "İran Rusiya rəhbərliyinin hər addımını dəstəkləmək niyyətində deyil", - bəyanatı da maraq doğurur.

İstisna deyil ki, Ruhani bununla həm də Rusiyanın energetik maraqlarına zidd olan TANAP layihəsinə Tehranın qoşula biləcəyinin aydın mesajını verib. Bu da sövq-təbii Rusiyanı qane edə bilməz. Demək, Moskvanın Xəzərdən mümkün təcavüz təhlükəsindən Azərbaycanla yanaşı, İran da sığortalanmayıb.

***

Göründüyü kimi, Tehranla Moskva bir sıra məsələlərdə *(silah ticarəti, AES tikintisi, Suriya məsələsi, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi və s.)* nə qədər tərəfdaş olsa da, ən azından qaz bazarında regional rəqiblərdir, necə deyərlər, "mehriban düşmənlər" kimidir. Beynəlxalq sanksiyalar götürüldükdən sonra sözsüz ki, bu, özünü daha qabarıq şəkildə büruzə verəcək və verməyə başlayıb da.

İranın Avropaya qaz nəqli üçün ən əlverişli marşrutlar isə Türkiyə və Azərbaycan olaraq qalır. Üstəlik, prezident İlham Əliyev və baş nazir Əhməd Davudoğlunun uğurlu Tehran səfərləri də göstərdi ki, Azərbaycan və Türkiyə cənub qonşumuz üçün təkcə önəmli iqtisadi tərəfdaşlar deyil, həm də ən vacib qonşular kimi, regionda mühüm təhlükəsizlik faktorlarıdır.

Maraqlıdır ki, Ruhaninin açıqlamasından dərhal sonra Rusiya İrana S-300 raketlərinin satılması ilə bağlı müqavilənin icrasını dayandırıb. Avropa.info xəbər verir ki, İsrailin xəbərdarlığından sonra Rusiya S-300 hava hücumundan müdafiə sistemlərinin Tehrana təhvil verilməsini dayandırıb. Xəbərdə Putinin bu qərarının səbəbi kimi İranın bu sistemləri "Hizbullah"a göndərə biləcəyi göstərilir.

Xatırladaq ki, bir neçə gün öncə İsrail baş naziri Netanyahu məsələ ilə bağlı açıqlama verərək, Tehranın Suriyadan Livandakı "Hizbullah" təşkilatına müasir silahlar göndərməsinə razı olmayacaqlarını bildirmişdi. 2007-ci ildə Rusiya ilə İran arasında 800 milyon dollar dəyərində S-300 raket sisteminin satılması ilə bağlı müqavilə imzalamışdı.

***

Göründüyü kimi, İranın özü də regionda heç də sadə durumda deyil, seçim qarşısındadır. Ancaq məşhur məsəli bir qədər dəyişsək, belə demək olar ki, "Yaxın qonşular (Azərbaycan, Türkiyə) uzaq müttəfiqdən (Rusiyadan) yaxşıdır". Deyəsən, Tehran bunu, nəhayət, fərq eləməyə başlayıb.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 54 (6375) 8 mart 2016

**Amerikada Tramp şousu davam edir. Qalmaqallı respublikaçı namizəd bu dəfə də "Fox Nyus" telekanalında keçirilən teledebat zamanı Rusiya ilə əlaqələrin nizama salınmasına tərəfdar olduğunu bildirib. Qeyd edək ki, bu onun ilk qalmaqallı çıxışı deyil. Daha öncə də müsəlmanların Amerikaya girişinin qadağan olunması, Meksika ilə sərhəddə divar hörülməsi kimi sensasiyalı çıxışlar etmişdi.**

# Donald Tramp Amerikanın prezidenti olsa...

Bu qalmaqal fonunda Trampın kimliyi də dünya mediasının diqqətindən qaçmayıb. Respublikaçı namizədin necə milyarder olması, dünyanın əksər ölkələrində məşhur Tramp markalı tikililərin olması da müzakirə mövzusudur.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Amerika cəmiyyətində qeyri-siyasətçilərin prezident olması təcrübəsi var və Trampın seçilməsi ehtimalını da nəzərdən qaçırmaq olmaz: "Tramp vaxtilə orta səviyyəli bir biznesmendən milyarderə çevrilib. İnşaat sektorunda böyük uğurları var. Ən böyük uğurlarını da məhz Nyu-Yorkda qazanıb. Nyu-Yorkda müasir binalar, ofis mərkəzləri tikib. Daha sonra digər sahibkarlardan fərqli olaraq xarici ölkələrdə də işini davam etdirməyə başlayıb. Çünki Amerikanın tikinti sektorunda elə çox imkanlı sahibkar yoxdur ki, başqa ölkələrdə də uğurunu təkrarlaya bilsin. Lakin Tramp bir marka yaradıb və bu markanın əsasında əksər ölkələrdə, hətta Bakıda da böyük ofis mərkəzləri inşa olunub. Bakıdakı ofis mərkəzinin açılışı bir qədər ləngisə də, həmin proyekt üzərində inşa edilib. Tramp bir namizəd kimi ortaya çıxdıqda, heç kim gözləmirdi ki, belə böyük bir reytinq yığa bilər. Hamı deyirdi ki, Tramp sıradan bir namizədə çevriləcək və seçki prosesinin ortasında özü namizədliyini geri götürəcək. Bu qədər siyasi fiqurlar, konqresmenlər, tanınmış insanlar varkən, bir növ Jirinovskiyə bənzəyən Trampın uğur qazanması gözlənilmirdi. Lakin bəlli oldu ki, konqresmenlərlə, keçmiş qubernatorlarla mübarizədə hamısını üstələdi. Çünki o, insanlara daha yaxın olduğunu göstərdi. Bəzən siyasətçilər həqiqəti demirlər. O isə həqiqəti insanların başa düşdüyü dildə izah etdi. Hətta bizim çox xoşlamadığımız bəzi fikirlər də işlətdi ki, bu, amerikanların xoşuna gəldi. Çünki düşünürlər ki, o səmimidir".



**Elxan Şahinoğlu:** "Bu o demək deyil ki, Tramp qələbə çalıb Ağ Evin sahibi olsa, bütün bu dediklərini həyata keçirəcək"



**Hikmət Hacızadə:** "Onun reytinqinin yüksək olması Amerika cəmiyyətinin problemidir"

**Elxan Şahinoğlunun fikrincə, Trampın bu cür qalmaqallı açıqlamaları, sadəcə, seçki kampaniyasının bir elementi də ola bilər:** "Bu, heç də o demək deyil ki, Tramp qələbə çalıb Ağ Evin sahibi olsa, bütün bu dediklərini həyata keçirəcək. Məsələn, deyir ki, Meksika ilə sərhəddə böyük bir divar hörəcəyəm və bu divarın pulunu Meksika özü ödəyəcək. Təkcə bunu etsə, qonşusu Meksika ilə münasibətlərini gərginləşdirmiş olacaq. Və yaxud müsəlmanlara qarşı bir neçə dəfə çıxışları olub, bu açıqlamalara uyğun siyasət yürütsə, o zaman da bütün İslam aləmi, ərəb ölkələri ilə münasibətlər kəskinləşəcək. Təsadüfi deyil ki, yaxın günlərdə belə bir xəbər yayılıb ki, Tramp prezident seçiləcəyi halda Amerika ordusu, generallar ona itaət etməyəcəklər. Bunun özü də Tramp üçün bir xəbərdarlıq və mesajdır. O, indi reytinq xətrinə müxtəlif sensasiyalı açıqlamalar versə də, gələcəkdə bu dediklərini həyata keçirməyə çalışsa, Amerikanın bütün daxili və xarici siyasətini alt-üst edəcək".

**Ekspert onu da vurğuladı ki, əgər Tramp prezident seçilsə və türk-müsəlman dünyasına qarşı dediklərini həyata keçirməyə başlasa, İslam və türk dünyası ilə münasibətlərdə istiləşmə olmayacaq:** "Məsələn, Türkiyə Amerikanın strateji tərəfdaşı, müttəfiqi sayılır, ancaq Tramp deyir ki, Rusiya ilə dostlaşacaq. Rusiya-Türkiyə münasibətləri isə indi gərgindir. Tramp Türkiyəni deyil, Rusiyanı seçsə, bu artıq Türkiyə-Amerika siyasətinə mənfi təsir edəcək. Yox, əgər dediklərini bir kənara qoyub Amerikanın ənənəvi xarici siyasətini davam etdirsə, elə böyük problemlər yaşanmayacaq. Ronald Reyqan da ixtisasca artist idi. Artistin prezident olması da 70-ci illərin sonunda, 80-ci illərin əvvəllərində Amerika cəmiyyətində xeyli suallar yaradırdı ki, artist də dövləti idarə edə bilərmi.

Ancaq görünür ki, Amerika tarixində ən yaxşı prezidentlərdən biri Ronald Reyqan oldu. Tramp da bu cür açıqlamalar verməsinə və siyasi təcrübəsinin olmamasına rağmən, bəlkə də prezident kürsüsündə fərqli bir siyasi yol tutacaq və müşavirlərinin təklifləri əsasında normal bir xarici siyasət yürüdəcək".

**Politoloq Hikmət Hacızadə isə Trampın prezident seçiləcəyinə inanmadığını bildirdi:** "Mən inanmıram ki, Tramp prezident seçilsin. O hətta respublikaçılar partiyasından irəli sürülsə də, bu cür siyasətlə, bu söz-söhbətlə, belə danışıqla seçicilər ona səs verməyəcək. Böyük ehtimalla Hillari Klinton qələbə qazanacaq. Yox, əgər Tramp prezident seçilsə, seçki kampaniyasında səsləndirdiyi fikirləri həyata keçirməyə başlasa, bu, Amerika üçün böyük faciə olacaq. Amma qeyd etmək lazımdır ki, Amerikada prezident Azərbaycanda olduğu kimi deyil. O, əli-ayağı bağlı bir fiqurdur. Onun Konqresi var, Senatı var, Ali Məhkəməsi var. Yəni onun hakimiyyəti xeyli məhdudlaşdırılıb. Bu, "şizofrenik" hakimiyyətə gəlsə belə, çox şey edə bilməz".

**Politoloqun fikrincə, Trampın reytinqinin yüksək olması Amerika cəmiyyətinin problemidir:** "Görünür, respublikaçılar hansısa psixoloji krizisdədirlər. Onlar da alman xalqı kimi Hitler axtarırlar və düşünürlər ki, bir kişi gəlsin və bütün problemləri həll eləsin. Amerikalılar da bu vəziyyətə düşüblər yəqin. Lakin bundan çıxış edərək Trampın prezident seçiləcəyini də heç kim deyə bilməz".

❑ **Nərgiz LİFTİYEVA**

# Türkiyə və ABŞ kəşfiyyatları birgə işləməyə başladılar

**Amerikanın "The Washington Post" qəzeti Türkiyə ilə ABŞ kəşfiyyat strukturlarının sıx münasibətlərindən yazıb. Yazıda bildirilir ki, Mərkəzi Kəşfiyyat İdarəsi ilə Türkiyə Milli Kəşfiyyat İdarəsi (MİT) Suriya sərhədində ortaq mərkəz yaradıblar.**

Məhz bu mərkəzin sayəsində son aylar Türkiyədən İŞİD-ə qoşulmaq üçün sərhədi keçənlərin sayı 30% azalıb.

Bundan başqa, Amerika tərəfi Türkiyədəki İncirlik bazasından havaya buraxdığı pilotsuz təyyarələr vasitəsilə Suriya ərazisində önəmli kəşfiyyat məlumatları toplayır.

O da vurğulanır ki, Türkiyə ABŞ-ın başçılıq etdiyi koalisiyanın Suriyada quru əməliyyatlarına başlamasında da israrlıdır.

# Bütün yüksək vəzifələri qadınlara!



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

## Xanımlara təbrik əvəzinə

**Bu gün 8 Martdır. Bir üzü gülən, bir üzü isə kədərli Azərbaycan xanımının da formal olsa belə, xoş günü, şad günüdür. İlk sual da elə burdan doğur ki, nə ola bilər(di) Azərbaycan kişisinin Azərbaycan qadınına ən böyük hədiyyəsi?**

Şablon çıxmasın, qadın "ana", "ana Vətən" sözlərinin sinonimi olduğundan, əlbəttə ki, erməni işğalı altındakı ana torpaqların, Qarabağın, Şuşanın azad olunması, yağı düşməndən, Xocalı canilərindən layiqli qisasın alınması!

Azərbaycan kişisinin Azərbaycan qadını qarşısında ən böyük borcu, ona verəcəyi ən qiymətli hədiyyə şəksiz ki, budur. Fəqət, hələ ki bəlli səbəblərdən mümkünsüzdür. Əfsus ki, qadına dəyər də hələ ki yerində deyil. Nəyi nəzərdə tuturuq?

Azərbaycan sözsüz ki, demokratik ölkə deyil. Təkcə o meyara görə yox ki, burada hakimiyyət indiyədək bircə dəfə də olsun seçki yolu ilə dəyişməyib və ölkədə hələ də siyasi dustaqlar var - arasında qadını da olmaqla. Həm də o səbəbə ki, Azərbaycanda qadın gerçək ictimai-siyasi dəyərini almayıb. Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında yetərli təmsil olunmayıb, onun potensialından millətin və dövlətin tərəqqisi üçün lazımınca istifadə edilməyib.

Bu isə demokratik dövlətlərin də təcrübəsindən bilindiyi kimi, yalnız təməl azadlıqlarının bərqərar ediləcəyi təqdirdə mümkündür. Elə toplumun digər güclü kəsiminin qurucu potensialı da yalnız o halda üzə çıxa, reallaşa bilər. Hələliksə, qadınlar daha çox humanitar sahələrdə (səhiyyə, təhsil) dövlətə gərəkli sayılırlar, bir də 2-3 ildən bir seçkiləri hakimiyyət nümayəndələrinin xeyrinə total saxtalaşdırmaq üçün.

Demirik ki, Azərbaycan qadını dərhal ölkə rəhbərliyində məsul postlara gətirilməlidir. Hərçənd belə qadın-siyasətçilərimiz az deyil və onlara rahatca ölkəni belə etibar eləmək olar. Nə olsun ki, qadınlardan peyğəmbər çıxmayıb, ölkə rəhbərləri, məsul şəxslər çıxar - yüz faiz çıxar. Çıxır da.

Elə hazırda yanılmırıqsa, Latviyanın, Xorvatiyanın, Braziliyanın, Finlandiyanın prezidentləri, Almaniyanın kansleri (baş naziri) qadın deyilmi? Gürcüstanda hətta müdafiə naziri zərif cinsin təmsilçisidir. Çox uğurlu da rəhbər-kadrlardır. Deməli, əsas məsələ məqbul siyasi mühitin və şərtlərin mövcudluğudur. Yerdə qalanı yoluna düşəcək.

Heç kəs inciməsin və dodaq da büzməsin, tam ciddi deyirik: yüksək vəzifələrdə qadınlar olarsa, Azərbaycanda korrupsiyanın kökü daha tez kəsilər, siyasi-iqtisadi islahatlar qat-qat sürətli gedər. Ən azından təcrübə var. Çünki incə və zərif varlıq kimi qadınlar təbiət etibarilə kişilərdən daha ədalətli, daha insaflı, daha mötədil olur, korrupsiya və rüşvətə meyl eləmir, həbs perspektivindən qorxur, hər cür kriminaldan uzaq durmağa çalışırlar. Bu özəlliklər idarəçilikdə də müsbət mənada özünü göstərəcək.

Bilirik, bu yerdə "ərazilərimizin 20%-i işğal altında ikən nə gender söhbətidir ortaya atılıb" - deyə növbətçi kontur-arqument ortaya atan kişilər olacaq. Amma nahaq yerə. Yuxarıda qeyd edildi - ərazisinin bir hissəsi işğal altında olan Gürcüstanın müdafiə naziri qadındır. Amma öz aramızdır gürcü ordusunda nizam-intizam məsələsində bizdən geri qalmır. Nə bilmək olar, bəlkə elə Gürcüstanın ərazi bütövlüyünü günlərin birində qadın ali baş komandan təmin edəcək? Hər halda, Gürcüstan bu yöndə - NATO-ya üzvlük yolunda inamla irəliləyir.

Odur ki, gəlin, bütün strateji vəzifələri qadınlara həvalə edək. Heç olmasa, müvəqqəti, fərqə əmin olmaq üçün...

**Yaddan çıxmamış, bayramınız mübarək, əziz xanımlar! Tezliklə sizi yüksək və halal dövlət postlarında görmək arzusu ilə!...**

# Bakının bir addımlığında möcüzə vulkan: şəfalı palçıq, bilinməyən Hamamdağ

## "Yeni Müsavat"çılar Hamamdağdakı palçıq vulkanından yazdılar; 15 kilometr piyada yol, qayalıqlar, qaynayan vulkan və qayalıqlardakı ilanlar...

**Heç bu qədər çətin olacağını düşünməmişdim. Üç deyil, beş deyil, mənzil başına çatmaq üçün 7 kilometr məsafəni ayaqla getmək lazımdır. Bunun bir də geriyə qayıtması var... "Əcəba, bu səyahətə razılaşmasaydım?"... tərəddüd yolboyu rahat buraxmır, nə yalan deyim? Amma mənzilbaşında ekzotik mənzərə vəd olunub, dözmək olar...**


















"Yeni Müsavat"ın reportyor qrupu bu dəfə birgünlük turlardan çox da məşhur olmayanını seçib. İnsanların daha çox tərcih etdikləri bölgələrə yox, Hamamdağa getməyə qərar vermişik. Hamamdağ? Yəqin ki, sizdə də ilk təəssürat təəccüb oldu: Bizdə elə yer varmı? Hardadır? Dağda diqqətçəkən nə ola bilər?

**Gəlin gedək - vulkan püskürsün, biz də baxaq...**

Düzü, sözügedən turun elanı qarşıma sosial şəbəkədə çıxdı. Məlum oldu ki, Hamamdağ Ələtlə Pirsaat arasında, dəniz kənarında, 70-80 m nisbi hündürlüyü olan bir təpədir. Təpə bütövlükdə sönmüş palçıq vulkanının krateridir. Təpənin cənub yamacında kiçik, amma çox aktiv bir palçıq vulkanı var. Ordan dənizin, adaların və köhnə platformaların geniş mənzərəsi açılır.

Palçıq püskürsə də, vulkan vulkandır... Coğrafiya kitablarından oxuduğumuz, zaman-zaman sənədli filmlərdə, "Discovery Chanel"də izlədiyimiz vulkanı canlı görmək şansı... Kim istəməz? Üstəlik, cəmi 20 manat ödəməklə. Bəli, tur bu məbləğədir. Turun planına gəlincə, vəd olunan qrafik aşağıdakı kimi idi:

08.30 - Yola düşürük;

09.30 - Ələtə çatırıq. Çöl yolu ilə mümkün qədər avtobusla gedirik;

10.00 - Geri qalan hissəni piyada gedirik. Maksimum 8 km x 2. Avtobus əsas hissəni gedə bilsə daha az;

11.00 -12.00 - Təpəyə palçıq vulkanına çatırıq.

+ 1 saat nahar və sərbəst vaxt;

13.00 - Dəniz kənarına düşürük;

+1-2 saat dənizkənarı yürüş, +1-2 saat avtobuslara dönüş;

17.00 - Bakıya dönüş;

18.00 Bakıya varış.

Deyilən zamanda, «Elmlər Akademiyası» metrosunu qarşısındayıq. Bu sətirlərin müəllifi, foto-video reportyorumuz Aytən və köşə yazarımız Zamin Hacı. Obyektivlik naminə deməliyəm ki, elə turu bəndənizə məsləhət görən də köşə yazarımız olur. Klassik, hotelli tətillərə, səfərlərə qarşı olan, Sezen Aksu sayağı "mənim məskənim dağlardır, dağlar... " prinsipi ilə yaşayan Zamin elanı təxminən belə reklam edir: "Nə var e, süni qarın yağdırıldığı yerlərdə? Adam ayağı dəyməmiş yerlərə getmək lazımdır. Çıxırsan dağın başına, vulkan püskürür. Vəhşi, təmiz təbiət... Belə yerlərdən yaz, oxucu da bilsin ki, ölkəsində nələr var..."

Dediyinə əməl edib, turun təşkilatçıları ilə əlaqə saxlayıram. Amma məşhur lətifədə deyilən kimi, "yüngülvari qanqaraçılıq" elə bu mərhələdə yaşanır. Əlaqə nömrələri yerinə təxminən 3 nömrə yazılsa da, birinə zəng çatmır, digərinə cavab verən şəxs "mən detalları bilmirəm, bələdçi ilə əlaqə saxlayın" deyir, sonuncu nömrənin sahibi isə Hamamdağa şənbə günü yox, bazar günü nəzərdə tutulan turun bələdçisi olduğu üçün qarışıqlıq yaranır. Beləcə, bir neçə saatlıq "zəng çatmır", facebook yazışması, mesajlaşma, vatsaplaşma.... mərhələsindən sonra üç nəfərlik yer sifariş edə bilirəm. Bu narazılığımı özlərinə də deyirəm: təşkilatçılıq o qədər də yüksək səviyyədə deyil, başqası olsa çoxdan vaz keçərdi.

**Heyət rəngarəng - polyak da var, ingilis də, jurnalist də...**

Beləcə, qayıdaq görüş yerinə. Şənbə günü, deyilən saatda metronun qarşısında dayanan kiçik mikroavtobus və 20-yə yaxın turist. Heyətə baxıram - rəngarəng. Məlum olur ki, bu cür turlara klassik azərbaycanlı turisti qatılmağı sevmir. Uşağını da özü ilə götürüb, bir şənbə "kafasını dinləmək" istəyən orta yaşlı xalalar, sevgilisi ilə həftə sonu keçirməyi planlayan cütlüklər... Onları burda tapa bilməzsiniz, əsla! Bu tura qatılanlar bildiyiniz ekstrim, macəra həvəskarlarıdır. Aralarında polyak da var, ingilis də... Əksəriyyəti isə turun bələdçisi Cavid bəyin *(Cavid Ağa adı ilə tanınır turistlər arasında)* təşkilatçılığı ilə bu günə qədər bir neçə belə səfərdə olublar. Kəşf olunmamış təpələr, meşələr, zirvələr... Gediblər, cürbəcür macəralar yaşayıblar. Elə mənzilbaşına çatana qədər etdikləri söhbətlərdən bunu anlamaq mümkün idi: "Yadındadır, gedib meşədə qaldıq. Gecə çaqqal sürüsü necə gəldi... Səsləri aləmi götürmüşdü?" Bizim kimi naşıların gözü hədəqəsindən çıxır, onlar danışıb gülürlər. Hazırlıqlıdırlar, qayalıqlarda gəzmək üçün xüsusi çubuqları, ayaqqabıları, yuxu torbaları...

Bələdçimiz də deyir ki, o, əsasən kəşf olunmamış yerlərə səfər təşkil etməyi sevir. Cəmi bir neçə dəfə: "Gördüm ki, ora populyarlaşdı, başqa turoperatorlar da tur təşkil etdilər, mən daha ora aparmıram..." Hiss olunur ki, Cavid bəy bu işlə biznesdən daha çox maraq üçün məşğul olur. Bunu vulkana gedən yolda danışıqlarından, söhbətlərindən hiss edirəm...

**Niyə Hamamdağ - "izah"ı orijinaldır...**

**Amma Zamin hər zamankı havasındadır, bu dəfə də dağın adına "ilişir": "Palçıq vulkanı hara, Hamamdağ hara?" Dərhal da versiyasını səsləndirir: "Yəqin gəlib burda palçıq vulkanına batır, sonra da yaxınlıqdakı dənizdə çimirmişlər. Hamamdağ adı ondandır..."** Tur iştirakçıları gülüşürlər, versiya bələdçimizin ağlına batır. Bu cür etimologiya ancaq köşə yazarının ağlına gələ bilər, deyə, düşünürəm mən də. Bu arada turdakılar bizim jurnalist olduğumuzdan *(Zamin xaric, onu tanıdılar - müəl.)* xəbərsizdir. Reportaj hazırlayacağımızın anonsunu da vermirik, hər şey təbii olsun deyə. Ümid edirəm, bu "partizanlığa" görə bizdən inciməzlər.

**7 kilometri piyada - uzun, incə bir yoldayıq...**

Avtobus Ələtə doğru hərəkət edir. Yadıma Fikrət Sadıqın o məşhur "Ələt-Elit" şeirinin misraları düşür: "Əvvəl Ələt var idi, Gedib-gələ bilirdik. İndi Elit var, Gedib-gələ bilmirik"... Gülürəm, camaatımız artıq hər ikisinə gedə bilmir, devalvasiyanın üzü qara olsun. Beləcə, qəsəbənin içindən keçirik, hamar yollar bitir, kələ-kötürlüyə çatanda... mikroavtobus dayanır. Məlum olur ki, burdan vulkana qədər 7 kilometr yolumuz var. Ayaqla yoxuşa qalxacağıq... Təxminən yolun yarısını birtəhər, "uzun, incə bir yoldayam, yürüyorum gündüz- gecə" misrasını zümzümə edərək, qət edəndə girişdə yazdığım peşmançılıq başlanır. "Yetim əlində qoğal əcaib" söhbəti yada düşür. Çünki bizim kimi naşılardan fərqli olaraq təcrübəli turistlər səkə-səkə çıxırlar dağın təpəsinə. Nə deyinmək, nə də "daha nə qədər qalıb" kimi uşaq bezdiriciliyi... Yolboyu neft buruqları və neftin müvəqqəti saxlanma yeri. Dərhal çakhaçak şəkil çəkdirmələr başlanır. Neft töküldükcə videosunu çəkir Aytən, biz neftlə selfimizi çəkdiririk. İstisinə qızınmayıb, tüstüsünə kor olduğumuz nəsnə ilə barı bir fotomuz olsun deyə... Az keçmədən qoyun sürüsü də çıxır qabağımıza. Bir-birindən fərqli fotolar, videolar...

**Bizim turist palçıqda serf edir, polyak palçığa batır**

Bu da təpənin başı. Təbiət xarüqəsi olan vulkan. Sayt oxucularımız videodan da görürlər, yavaş-yavaş qaynayır, aktivdir. Tur iştirakçılarından biri palçığı görən kimi, tez ayaqqabısını çıxarır, corablarını soyunur, verir özünü palçığın içinə. Sürüşür, az qala serf edir, biz də çəkirik. Onu görən naşı bir polyak turist də ayaqqabısını soyunmadan dalır palçığa. Aha, palçığa batmaq ifadəsinin necə yarandığının əyani şahidi oluruq. Adamı batdığı palçıqdan çıxarmaq üçün 4 nəfər köməyə gəlir. Məlum olur ki, ayaqqabı ilə belə macəra yaşamaq məsləhət deyil, batmaq qaçılmazdır.

Üstəgəl, bələdçimiz deyir ki, buranın palçığı müalicəvi əhəmiyyətə malikdir. Ayağında xəstəlik olanlar ayağını palçıqda saxlamaqla bu xəstəliklərdən qurtula bilərlər. Vulkanın yanında palçığa girmiş vedrənin izahını da belə verir dostlar: çox güman ki, kimsə palçığı vedrə ilə aparmaq istəyib, amma vedrə batıb palçığın içinə. Hər bir versiya kimi bunun da yaşamaq hüququ var deyirik.

**Piknik, ilanlı yol və bir avtobus dolusu palçıqlı turist**

Vulkanı izləyənlər izləyir, foto çəkdirənlər çəkdirir... Növbə piknikdədir. Kimin torbasında nə varsa, tökür ortaya və naharını edir. Bələdçimiz əvvəldən anons vermişdi çünki - "orda nə kafe var, nə restoran. Dağın başına çıxırıq, özünüzlə azuqə və ən azı iki litr su gətirin". Qarşıda bizi hələ ayaqla 7 kilometrlik yol da gözləyir. Qayıdış yolu isə gedişdəkindən fərqli olaraq dəniz kənarı ilədir. Adam ayağı dəyməmiş, vəhşi sahil. Qayaların arasından ilan da çıxır. Qorxanlar qorxur, foto, video çəkənlər isə silahlarını "sazlayır". Hər tərəfdə yosunlar, sahildə dənizçi papaqları, bir tay ayaqqabılar... Sirlər dünyası, qorxulu macəra kimi. Və mənzil başında bizi gözləyən mikroavtobus...

Beləcə, avtobusa minir, yolda çay fasiləsi verir və qayıdırıq şəhərə. Üstümüz palçıq içində, ayaqqabılarımızda bir neçə santimetrlik palçıq qatı. Avtobusdan düşən kimi yüngülvari təmizlənirik.

**Hamama gedən tərləyər deyiblər, bizdə isə Hamamdağa gedən palçığa batıb gəlir. Bütün hallarda görmədiyimiz, nabələd olduğumuz bir məkanı kəşf edirik. Növbə digərlərindədir, bizi izləyin....**

❑ **Sevinc TELMANQIZI**
**Foto: Aytən ABBASLI**

# Müxalifətə güc mərkəzinə çevrilmə "qadağası"...

## Qərb müxalifətlə əlaqələrini minimuma endirib; **Qabil Hüseynli:** "Təkəbbürlü liderlər siyasi inteqrasiya yolunda başlıca əngələ çevrilirlər"

**Ölkə müxalifətinin pərakəndə olması, güc mərkəzinə çevrilməməsi daim müzakirə mövzusudur. Xüsusilə iqtisadi böhranın fonunda demokratik düşərgənin bir araya gələ bilməməsi bu məsələni daha çox gündəm etdi. Müxalifət xalqın əsas problemində belə bir araya gəlib, bu problemlərdən çıxış yollarını birlikdə araya bilmədi.**

Təsadüfi deyil ki, son 23 ildə demokratik düşərgə daxilində uzunömürlü bir birliyin şahidi olmamışıq. Bir seçki ətrafında pərakəndə şəkildə bir neçə birlik, bloklarda birləşən müxalifət seçkidən dərhal sonra ayrılıb. Hazırda da bu hal hökm sürür.

Ekspertlər Qərbin Azərbaycan müxalifətinə dəstək verməməsinin kökündə məhz bu amili daha çox axtarırlar. Onlar hesab edirlər ki, Qərb dairələri ölkəmizdə vahid güc olan bir müxalif qurum görmədiklərinə görə açıq dəstək verməyə çəkinirlər. Çünki Qərb dünyanın hər yerində şəxsi marağını daha çox öndə tutur. Bu fikirlərin inandırıcı gəlməsinə səbəb, Gürcüstan, Ukrayna, Qırğızıstan kimi ölkələrdə Qərbin müxalifətə verdiyi dəstəkdir. Məhz o ölkələrdə müxalifəti Qərb güclü gördü


Qabil Hüseynli

və dəstəyini verdi. Sonluq isə hamıya məlumdur.

**Politoloq Qabil Hüseynli hesab edir ki, müxalifətin güc mərkəzinə çevrilməməsinə səbəb müxalifətin özüdür:** "Müxalifətə uzun illərdir ki, ambisiyaları yüksək olan liderlər rəhbərlik edir. Bu liderlər bir araya gəlib, bir məqsəd ətrafında birləşməyi bacarmırlar. Birləşmə ideyası meydana çıxanda, bu ideya kimdən çıxıbsa, o şəxsə qısqanclıqla yanaşılır. Mən onun bayrağının altından keçim-keçməyim kimi suallar yaranır. Çox zaman da mən niyə onun bayrağının altından keçməliyəm kimi düşüncələr əsas olur. Nəticədə ortaya atılmış ideyalar həyata keçmir. Bu düşüncələr uzun illər müxalifəti təqib edib. Birlik yaratmaq mümkün olmayıb. Çünki yarananda kimin lider olacağı, kimin ideyasının ətrafında birləşmə məsələsi müxalifət liderləri arasında ziddiyyət mənbəyinə çevrilib. Müxalifət əgər birləşmək istəyirsə, siyasi inteqrasiyaya getmək üçün ayrı-ayrı liderlərin sözü bir-birinin boğazından keçməlidir. Çünki lider həzm etməyi bacarmalıdır. Təəssüf ki, Azərbaycanın siyasi düşərgəsində belə siyasi mədəniyyət hələ ki möhkəmlənməyib. Təkəbbürlü liderlər çox zaman siyasi inteqrasiya yolunda başlıca əngələ çevrilirlər".

**Politoloq Qərbin Azərbaycan müxalifətinə dəstək verməməsinə də toxundu:** "Bu, konstitusiya nöqteyi-nəzərindən doğru deyil. "Siyasi partiyalar haqqında" Qanuna görə, bu partiyalara xaricdən maliyyə yardımı göstərilə bilməz. Verilərsə, onlar bu maliyyə mənbələrinin kökünü açıqlamalı, vergi orqanları qarşısında hesabatını verməlidirlər. Bu baxımdan Qərb dairələri son illərdə müxalifətlə əlaqələrini minimuma endiriblər. Maddi dəstəkdən söhbət gedə bilməz. Qərb siyasi dəstəyi də sonuncu plana keçirib. Bu da müxalifətin nüfuz qazanmasına, xalq arasında populyar olmasına ciddi maneçilik yaradır".

❑ **Cavanşir ABBASLI**

# Antiböhran koalisiyası Müsavat və AXCP ilə danışıqlar aparmır...

## Pənah Hüseyn: "...Ehtiyac yoxdur"

**Azərbaycan müxalifətinin böyük kəsiminin təmsil olunduğu antiböhran koalisiyasının Müsavat və AXCP ilə əməkdaşlıq üçün danışıqları davam etdirdiyi barədə xəbərlər yayılıb. Xüsusilə bu fikirlər koalisiyanın YAP, Müsavat və AXCP-dən ibarət olan Milli Şuranı xalq qarşısında açıq debata dəvət etməsindən sonra daha çox səslənir.**


Pənah Hüseyn

Doğrudur, koalisiyanın açıq debat çağırışı əks düşərgələr tərəfindən birmənalı qarşılanmayıb və müraciətə müsbət yanaşılmayıb. Amma bununla belə, açıq debat çağırışının arxasında əməkdaşlıq üçün cəhdlər olduğu deyilir.

Antiböhran koalisiyasına daxil olan qurumlardan **AXP lideri Pənah Hüseyn** yayılan xəbərləri təkzib etdi: "Koalisiya dediyimiz qurum blok, birlik deyil, sərt quruluşa malik təşkilat da deyil. Bu barədə son məlumatlarda da açıqlama verilmişdi. Koalisiyada ayrı-ayrı təşkilatlar, ziyalılar, vətəndaşlar təmsil olunurlar. Bu baxımdan Müsavat və AXCP ilə xüsusi danışıqlara ehtiyac yoxdur. Tədbirimiz hamı üçün açıqdır, hər kəs dəvət olunur. Tədbirlərin təşkili ilə işçi qrupu məşğul olur. İşçi qrupu böhran və müxalifətdəki problemlərlə bağlı açıq debat üçün müraciət hazırlayıb. Siyasi müxalifətin problemləri ilə bağlı isə YAP, Müsavat və Milli Şura ilə açıq debat üçün müraciət edilib. Bu debat xalq qarşısında da, qapalı bir zalda da ola bilər. Debatın formatı barədə təkliflər olardısa, müzakirəsi nəzərdə tutulurdu. Debat təklifimiz əməkdaşlıq, dialoq kimi bəzi media orqanlarında şərh olunur. Amma bu belə deyil. Həmin müzakirələrdə iştirak etmişəm və debat təklifini də mən vermişəm. Burada əməkdaşlıqla bağlı söhbət olmayıb".

❑ **Cavanşir ABBASLI**

# Müxalifət funksionerləri icra başçılarının çıxarılmasından məmnundurlar

**Son günlərin əsas müzakirə edilən məsələlərindən biri Salyan, Cəbrayıl və Laçın rayonlarının icra başçılarının vəzifələrindən azad edilmələri oldu. Prezident iki gün ərzində üç icra başçısını işdən çıxardı, Yardımlının icra başçısı Sevindik Hətəmov isə Salyana yeni rəhbər təyin olundu. Qarşıdakı günlərdə bu prosesin davam edəcəyi deyilir.**

Xalqın ölkə başçısının son sərəncamlarına münasibətinin müsbət olduğunu sezməmək mümkün deyil. Vətəndaşlar vəzifələri ilə vidalaşan icra başçılarının gedişinə sevinclərini gizlədə bilmirlər. Bu, özünü sosial şəbəkələrdə açıq şəkildə büruzə verir. Hətta icra başçılarını itirən rayonların sakinləri olmayan şəxslər də sosial şəbəkələrdə bu məsələyə münasibət bildirirlər. Buna səbəb də uzun müddət bu vəzifədə çalışan Cəbrayılın icra başçısı Mahmud Quliyevin, Salyanın icra başçısı Tahir Kərimovun, Laçının icra başçısı Akif Səlimovun fəaliyyətləri dövründə qoyduqları "iz"dir. Hər üç şəxsin icra başçıları olduqları rayonların ərazilərinin yarıdan çoxunu nəzarətə aldıqları, çoxsaylı fermalar, restoranlar tikdirdikləri barədə vaxtaşırı mətbuatda xəbərlər dolaşıb. Təkcə bir faktı qeyd edək ki, Tahir Kərimovun Qusarda böyük hoteli var. Eyni zamanda onun oğlu Həmzə Kərimov SOCAR-ın Rumıniya nümayəndəliyinin rəhbəridir. Bundan əlavə, T.Kərimovun Salyanın yarıdan çoxunu ələ keçirdiyi, fermalar tikdirdiyi barədə yerli sakinlər dəfələrlə mətbuat vasitəsilə şikayətlərini bildiriblər.



**Ədalət Yusibov:** "Yeni icra başçısı Tahir Kərimovun səhvlərini təkrarlamasın"



**Raqif Kərimli:** "Çıxarılan icra başçısının getməsi lazım idi"

**Salyanın keçmiş icra başçısı Ədalət Yusibov rayon sakinlərinin Tahir Kərimova qarşı narazılıqlarının son dövrlərdə artdığını bildirdi:** "Yerli rəhbərin kim olmasından asılı olmayaraq, hansısa bir dəyişikliyin olacağına inanmıram. Çünki problemlərin həlli mərkəzin əlindədir. Bütün rayonlarla yaşanan problemlər demək olar ki, eynidir. İcra başçısının insanlara münasibəti belə məsələlərdə ciddi rol oynayır. Bütün respublika ərazisində icra başçılarından ciddi narazılıq var. O cümlədən Tahir Kərimovdan narazılıq açıq müstəviyə keçmişdi. Rayonda haqsızlıq hökm sürür, insanlar üzərində basqı var idi. Ola bilsin ki, yeni icra başçısı Tahir Kərimovun səhvlərini təkrarlamasın, onun etdiklərini etməsin. Əhalinin qazancı yalnız bu ola bilər. Başqa bir dəyişikliyin olacağına inanmıram".

**Müsavatın Salyan təşkilatının sədri Nizami Osmanuşağı T.Kərimovun rayonda yüngülvari abadlıq işləri apardığını qeyd etdi:** "Rayon sakinləri Tahir Kərimovun işindən ciddi narazı idilər. Ona qarşı daim mənfi münasibət oldu. Yeni icra başçısının necə olacağını zaman göstərəcək. Siyasi mənada Salyanın icra başçıları heç vaxt müxalif partiyaların rəhbərlərini yaxına buraxmırdılar. Sevindik müəllimin necə işləyəcəyini görəcəyik. Amma deyim ki, onun tərifi özündən qabaq gəlib".

**Cəbrayıldan olan tanınmış vəkil Adəm Məmmədov bütün cəbrayıllıların Mahmud Quliyevdən narazı qaldıqlarını söylədi:** "O, insanlarla davranışlarını bilmirdi. Dəfələrlə etiraz etmişəm ki, belə davranış tərzi olmaz. Fəaliyyəti və davranışlarından qətiyyən razı olmamışam. Cəbrayıl bəlkə də məcburi köçkünləri olan rayonların arasında sosial vəziyyətinə görə ən geridə qalan rayondur. Bunun səbəbkarları Mahmud Quliyev və Aslan Şahverdiyevdir. Bunlar fəaliyyətsiz insanlar olublar. Ölkə başçısının qərarı ədalətlidir. Ümid edirik ki, rayonumuza şəxsi keyfiyyətləri, işgüzarlığı ilə seçilən bir şəxs rəhbər təyin olunacaq. Son 16 ildə rayonumuzun ciddi problemləri yaranıb. Deputatlığa namizəd olanda bəzi ərazilərdə görüşlər keçirdim. Elə yerlər var idi ki, oralara Mahmud Quliyevin ayağı belə dəyməmişdi. O, rayonda yalnız intriqalar yaratmaqla məşğul idi. Rayonu tayfalara bölmüşdü. Bu şəxs gerizəkalı icra başçısı kimi insanların yaddaşında qaldı".

**Müsavatın Laçın təşkilatının keçmiş sədri Raqif Kərimli Akif Səlimovun fəaliyyətindən razı qalmadıqlarını qeyd etdi:** "Laçının problemləri uzun illərdir davam edir. İcra başçısının dəyişməsi ilə problemlərin həll olunacağını düşünmürəm. Laçınlılar qədər problemləri olan ikinci bir bölgə tanımıram. Gələn bir iş görəcəksə, çıxarılan icra başçısının, demək, getməsi lazım idi".

❑ **Cavanşir ABBASLI**




**Azərbaycanın işğal altındakı ərazilərindəki maddi mədəniyyət abidələrimizin, yeraltı və yerüstün sərvətlərimizin talanması barədə vaxtaşırı faktlar ortaya çıxır, məlumatlar yayılır. Hətta Azərbaycan bununla bağlı beynəlxalq qurumlara dəfələrlə müraciətlər edib, lakin hələlik bu vandalizmin qarşısını almaq mümkün olmayıb.**

# Azərbaycan ərazilərini talayan Ermənistanla bağlı şok hesabat

## Düşmən ölkə Qarabağı necə talayır; rəsmi Bakı Beynəlxalq Məhkəməyə müraciət edə bilər

Qeyri-rəsmi məlumatlara görə, Ermənistan 25 ilə yaxındır davam edən işğal nəticəsində Azərbaycana 818,88 milyard dollarlıq zərər vurub. Bu barədə Ermənistanın işğalı nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun dünən təqdim olunan hesabatında deyilir. Qeyd olunub ki, İşçi Qrupu dəymiş zərərin hesablanması işlərini davam etdirir. Araşdırmalar nəticəsində dəymiş zərərin məbləğinin artacağı istisna edilmir. Hesablamaların aparılmasında məqsəd Ermənistandan təzminat tələb etmək və bu məsələni beynəlxalq səviyyədə qaldırmaqdır.

**Bugünlərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN) "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatını təqdim etdi. Hesabatda əks olunmuş məlumatı daha çox erməni açıq mənbələrindən toplanılaraq işğal olunmuş ərazilərdə beynəlxalq hüquqa tam məhəl qoyulmadan məskunlaşmanın həyata keçirilməsi, mülkiyyət, təbii və digər sərvətlərin vəhşicəsinə istismarı, talan edilməsi və qeyri-qanuni ticarəti daxil olmaqla, davamlı fəaliyyəti sübut edən kifayət qədər təsdiqedici dəlillər təmin edir.**

"Dəlillər göstərir ki, Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin işğal olunmuş hissəsi boyunca təbii sərvətlərin qeyri-qanuni daşınması həyata keçirilir və Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz istehsal olunmuş məhsulların, eləcə də minerallar və digər sərvətlərin həmin ərazilərdən beynəlxalq bazarlara daşınması üçün Ermənistan nəqliyyat məntəqəsi rolunu oynayır.

Münaqişənin ən tez bir zamanda siyasi həllinə yönəlmiş hazırkı səylərə rəğmən, Ermənistanın həyata keçirdiyi siyasət və təcrübə onun açıq-aşkar Azərbaycan ərazilərinin işğalının möhkəmləndirilməsi və hərbi qüvvələr tərəfindən işğal edilmiş və kütləvi şəkildə etnik təmizləmə aparılmış həmin ərazilərin ilhaqının təmin edilməsi niyyətini sübut edir. Ermənistan tərəfinin bu hərəkətlərinə qarşı adekvat beynəlxalq reaksiyanın olmaması yalnız onun cəzasızlıq və özbaşınalıq hisslərinin artmasına yardım edir.

Bu baxımdan Azərbaycan Respublikası beynəlxalq ictimaiyyəti Ermənistanı üzərinə götürdüyü beynəlxalq öhdəliklərə tam riayət etməyə, dərhal həm erməni, həm də xarici vətəndaşların işğal olunmuş ərazilərə köçürülməsini dayandırmaq və ləğv etməyə, dərhal Azərbaycanın işğal olunmuş ərazilərində iqtisadi və ticarət fəaliyyətini dayandırmaq və gələcəkdə də belə fəaliyyətlərdən çəkinməyə, həmin ərazilərdəki arxeoloji, mədəni və dini abidələr də daxil olmaqla, mədəni irs nümunələri və müqəddəs yerlərin dağıdılması və talan edilməsini dayandırmağa məcbur etməyə çağırır.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin bütün üzvlərini Azərbaycanın Dağlıq-Qarabağ regionu və digər işğal olunmuş ərazilərində hər hansı bir qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi və onda iştirak da daxil olmaqla, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə öz ərazilərində hər hansı fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilən fəaliyyətin milli qanunvericilik imkanları da nəzərə alınmaqla, qarşısını alacaq effektiv tədbirlər görməyə çağırır" - sənəddə deyilir.



**Elxan Şahinoğlu:** "XİN-in hesabat hazırlayarkən yalnız Ermənistanın açıq mənbələrinə istinad etməsi doğru yanaşmadır"



**Qubad İbadoğlu:** "Hesabat fransız və rus dillərinə də tərcümə olunub yayılmalıdır"

***

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabatına böyük əmək sərf edilib:** "Birincisi, hesabatdan bəlli olur ki, Ermənistan müxtəlif beynəlxalq şirkətləri işğal altındakı torpaqlarda qeyri-qanuni fəaliyyətə cəlb etdirir. İkincisi, Ermənistan işğal altındakı torpaqlarda qeyri-qanuni məskunlaşdırma fəaliyyətini davam etdirir. XİN-in bu hesabatı hazırlayarkən yalnız Ermənistanın açıq mənbələrinə istinad etməsi doğru yanaşmadır. Bu, imkan verir ki, Azərbaycan XİN beynəlxalq təşkilatların və elə Ermənistanın subyektiv tənqidlərindən qorunsun. Çünki faktların yalan olduğunu iddia etsələr, bütün maraqlı tərəflərə Ermənistan istinadlı xəbərləri göstərmək olar".

**E.Şahinoğlu qeyd etdi ki, əgər hətta faktların yalan olduğunu iddia etsələr, bunun özü belə Azərbaycanın xeyrinədir:** "Demək, bununla işğal altındakı torpaqlarda fəaliyyətin və məskunlaşmanın qeyri-qanuni olduğunu etiraf etmiş olacaqlar. Faktların doğruluğunun etirafı isə Ermənistanın beynəlxalq hüquqa hörmətsizliyinin göstəricisi olacaq. Buna baxmayaraq, beynəlxalq təşkilatların bu hesabatdan çıxış edərək Ermənistana təzyiq edəcəyini düşünmürəm. Beynəlxalq təşkilatlar məsələyə obyektiv yanaşsaydılar, birinci növbədə Ermənistana təzyiq edərdilər ki, silahlı qüvvələrini heç olmasa Dağlıq Qarabağ ətrafındakı torpaqlardan çıxartsınlar. Digər tərəfdən, rəsmi Bakı bir neçə dəfə ATƏT-ə müraciət edərək işğal altındakı torpaqlara faktaraşdırıcı missiya göndərməyi tələb edib. Belə bir missiya bir neçə dəfə işğal altındakı torpaqlarda olub. Ancaq onların hazırladıqları hesabat "balanslı" olub, nə Azərbaycan, nə də Ermənistanın xətrinə dəymək istəyiblər. Yeni hesabatları eynilə Minsk Qrupu həmsədrlərinin açıqlamalarına bənzəyib. Hər halda, Azərbaycan XİN bu hesabatı hazırlayıb dünya ictimaiyyətinə təqdim etməklə beynəlxalq aləmi düşünməyə vadar edib. Bu da BMT, AŞ PA və Avropa Parlamentinin işğal altındakı torpaqlarla bağlı qəbul etdikləri ədalətli qərarlara əlavə istinad sənədi olacaq".

**E.Şahinoğlu ümumi işimizin xeyrinə olan bir gileyini də dilə gətirdi:** "XİN-in sənədin tam mətnini ingilis dilində hazırlaması başadüşüləndir. Sadəcə, həmin sənədin tam mətnini Azərbaycan dilində tapa bilmirəm. Bəlkə də hazırlayıblar, mən rast gəlməmişəm. Əgər öz dilimizdə hesabatın mətni yoxdursa, bunu qüsur sayıram. Əlbəttə, hədəf beynəlxalq ictimaiyyətdir, ancaq bundan əvvəl yerli ictimaiyyətin də sənədlə tanış olmasına ehtiyac var. Bu yaxınlarda Azərbaycan parlamentinin sədri Oqtay Əsədov XİN-dən Milli Məclisə sənədlərin bərbad gündə göndərildiyini dedi. XİN-də mühüm postlarda qərar tutan diplomatlar öz ana dillərində səlis danışa və yaza bilmirlərsə, heç olmazsa, tərcüməçilərə müraciət etsinlər".

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu da hesabatı müsbət xarakterizə etdi:** ""Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı hesabat geniş və hərtərəfli hazılanıb, faktlarla, təsdiqedici sənədlər və fotolarla zəngindir. Odur ki, hesabatın müəlliflərinə ilk növbədə təşəkkür edirəm. Hesab edirəm ki, bu hesabat Ermənistan və Azərbaycanı təmsil olunduğu bütün beynəlxalq təşkilatlarda, o sıradan Avropa Şurasında, BMT-nin institutlarında, eyni zamanda sektoral və regional təşkilatlarda müzakirəyə çıxarılmalıdır".

**Q.İbadoğlu təmsil olunduğu Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü qlobal təşkilatının beynəlxalq idarə heyətinin üzvü olaraq bu faktlardan yararlanacağını vurğuladı:** "Ermənistan da 3 ildir ki, bu təşkilata üzv olmağa çalışır. Onların üzvlük ərizəsinə bu ilin noyabr ayında Astanada keçiriləcək beynəlxalq idarə heyətinin toplantısında baxılacaq. Şəxsən mən bu sənədi idarə heyətinin bütün üzvlərinə göndərəcəyəm və çalışacağam ki, burdakı faktlarla onları tanış edim. Hesabatdan açıq-aydın görünür ki, ermənilər bizim ərazimizdə mis-molibden, qızıl və digər əlvan metalları istismar edirlər. Mən şəxsən müzakirələr zamanı bu məsələni qaldıracağam. Hesab edirəm ki, digər beynəlxalq təşkilatlarda təmsil olunan azərbaycanlılar da eyni işləri görməlidir".

**İqtisadçı alim hesab edir ki, bu hesabat dünya siyasətində rol oynayan ölkələrdə səfirliklər vasitəsilə təqdima olunmalı, diplomatik korpusumuz onu nəşr şəklində iştirakçılara paylamalıdır:** "Eyni zamanda hesabatın icmalının aparıcı və nüfuzlu beynəlxalq nəşrlərdə dərci də həyata keçirilməlidir. Hesab edirəm ki, bu hesabat fransız və rus dillərinə də tərcümə olunub yayılmalıdır. Bundan sonra artıq bu hesabat barədə xarici mətbuatda nəşrlərə də istinad etməklə məhkəməyə müraciət etmək lazımdır. Amma çalışmaq lazımdır ki, hesabat beynəlxalq səviyyədə daha çox ictimailəşsin və onunla bağlı çoxsaylı nəşrlər olsun ki, məhkəmə zamanı biz yalnız Azərbaycan Xarici İşlər Nazirliyinə deyil, həmçinin xarici mətbuatın nəşrlərinə də istinad edək və onları əlavə sübut kimi məhkəməyə təqdim edək. Məhkəməyə müraciət istənilən halda effektli olacaq və bu addımı atmaq lazımdır".

# Cəbhədə vəziyyət gərgindir, düşmən xəbərdar edildi

## Vaqif Dərgahlı: "Bundan sonra da Ermənistanın bütün təxribatlarının qarşısı qətiyyətlə alınacaq"



**Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində vəziyyət gərgin olaraq qalır. Bu barədə "Yeni Müsavat"a Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı məlumat verib.**

Xidmət rəhbərinin sözlərinə görə, son günlər ermənilər Azərbaycan ordusunun bölmələrinə qarşı təxribatlar həyata keçirməyə çalışsalar da, bunun qarşısı alınıb: "Martın 4-də ermənilər işğal altındakı ərazilərimizi minalamağa çalışırdılar. Düşmənin koordinatları pilotsuz uçaq aparatlarla müəyyən olundu və ora zərbələr endirildi, bu barədə videokadrlar da yayılıb. Düzdür, düşmən tərəf iddia edir ki, itkilər verməyib. Amma minaatanlardan atılan mərmilərin məhvetmə radiusu var. Bizim əldə etdiyimiz kadrlardan açıq-aydın görünür ki, mərmilər şəxsi heyətə və maşınlara da dəyib. Yəqin ki, bir müddət sonra düşmən öz itkilərini açıqlayacaq".

**Son zamanlar Qərb mətbuatı və Rusiya ekspertlərinin Qarabağda müharibənin başlayacağı barədə davamlı məlumatlar yayması ordu rəhbərliyi tərəfindən necə qarşılanır? V.Dərgahlı:** "İstənilən halda biz düşmənin təxribatını gözləyirik. Ona görə ki, biz onsuz da müharibə şəraitindəyik və müharibə heç vaxt başa çatmayıb. Aktiv fazada olmasa da düşmən tərəf müəyyən cəhdlər göstərir və təbii ki, cavabını alır. Bundan sonra da Ermənistanın bütün təxribatlarının qarşısı qətiyyətlə alınacaq".

Qeyd edək ki, martın 7-dən başlayan Azərbaycanla Türkiyə Hərbi Hava Qüvvələri "TURAZ Şahini - 2016" təlimlərinə başlayıb. Bu təlimlər isə Ermənistan və onun himayədarı Rusiyada qıcıqla qarşılanır. Lakin Azərbaycan Müdafiə Nazirliyi bu təlimlərin planauyğun şəkildə həyata keçiriləcəyini bəyan edir. V.Dərgahlı bildirdi ki, artıq ikinci dəfədir birgə təlimlər keçirilir: "Bu, plana uyğun olaraq keçirilən hərbi təlimlərdir".

Qeyd edək ki, təlimlərdə iştirak etmək məqsədilə Azərbaycan Hərbi Hava Qüvvələrinin təlimlərə qatılan şəxsi heyətinin bir qismi Konya şəhərində yerləşən aviabazaya gedib. V.Dərgahlının sözlərinə görə, 25 marta kimi tam heyət orada olacaq və plana uyğun olaraq uçuşlar həyata keçiriləcək. Həm azərbaycanlı hərbçilər Türkiyə təyyarələrini, türkiyəlilər isə Azərbaycan təyyarələrini idarə edəcəklər. Artıq ikinci dəfə Türkiyədə baş tutacaq müştərək təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarələri iştirak edəcəklər. Görünən budur ki, iki qardaş ölkənin şahinlərinin bir araya gəlməsi türk düşmənlərini açıq-aşkar havalandırıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Borc üstündə üç qətl törədildi

## Bakıda, Göygöldə və Yevlaxda pul davaları ölümlə bitdi

**Bakıda çay evində qətl törədən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyindən APA-ya verilən məlumata görə, paytaxtın Nəsimi rayonu ərazisində yerləşən "Odlar Yurdu" çay evində Murad Qubadova atəş açan Vüqar Şirinov tutulub.**

Nəsimi Rayon Polis İdarəsindən «Trend»ə verilən məlumata görə, çay evinin sahibi, Ağsu rayon sakini Murad Aqil oğlu Qubadov borc verdiyi şəxs tərəfindən güllələnib.

Çay evinin sahibi M.Qubadov tanışı, Ağsu rayon sakini Vüqar Şirinova borc pul verib. Bir müddət sonra M.Qubadov V.Şirinova bir neçə dəfə zəng edərək pulunu istəyib. Pulu qaytara bilməyən V.Şirinov isə ondan vaxt istəyib. Lakin həmin müddətdə də o, borcu qaytara bilməyib. Martın 6-da M.Qubadov yenidən V.Şirinova zəng vuraraq borcunu tələb edəndə tərəflər arasında mübahisə yaranıb. V.Şirinov naməlum şəraitdə əldə etdiyi qundağı kəsilmiş ov tüfəngi ilə çay evinə gələrək sahibkarın otağına daxil olub. V.Şirinov otaqda M.Qubadova 3 atəş açaraq onu qətlə yetirib.

Yevlax şəhər Xaldan qəsəbəsində pulunu istəməyə gələn sələmçini ona borclu olan şəxs tüfəngdən atəş açaraq qətlə yetirib.

Ölkə.az-a Yevlax şəhər Xaldan qəsəbəsindən daxil olan məlumata görə, Musa adlı şəxs Xaldan qəsəbəsində qəssab işləyir. O, Adil adlı şəxsdən sələmə böyük miqdarda borc pul götürüb. Musa adlı şəxs pulunu istəyəndə isə Adil adlı şəxs bildirib ki, onun işlədiyi yerə gəlməsin, pulu düzəltdikdən sonra özü onu çağıracaq.

Martın 7-də Adil pulunu almaq üçün Musanın qəssabxanasına gəlib. Bu zaman iki şəxs arasında mübahisə düşüb, mübahisə zamanı Musa borca pul götürdüyü Adili boğazından tüfəngdən açdığı atəşlə vurub. Nəticədə Adil adlı şəxs hadisə yerindəcə ölüb.

Göygöl rayonunda isə 10 gün əvvəl baş verən cinayətin də borca görə baş verdiyinin üstü açılıb. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya daxil olan məlumatda bildirilir ki, martın 2-də Göygöl rayonunun Axarca kəndi ərazisindəki meşə massivində insan meytinin basdırılması barədə Göygöl Rayon Prokurorluğuna daxil olmuş məlumat əsasında meyit aşkar edilərək basdırıldığı yerdən çıxarılıb və istintaq-əməliyyat tədbirləri nəticəsində meyiti tapılan şəxsin Gəncə şəhər sakini, 1964-cü il təvəllüdlü Eldar Əliyev olduğu müəyyən edilib.

İstintaqla müəyyən edilib ki, Balçılı kənd sakini Cavid Cəfərov tanışı Eldar Əliyevlə aralarında borc pulla bağlı yaranmış narazılığa görə həmkəndliləri Qoçu Kərimov və Aqil Rüstəmovla qabaqcadan əlbir olan bir qrup şəxs halında onu öldürmək barədə razılığa gəliblər.

Fevralın 25-də saat 18 radələrində C. Cəfərov E. Əliyevi nahar etmək adı ilə A. Rüstəmovun idarə etdiyi avtomobillə rayonun Balçılı kəndində yerləşən "Nurəddin bulağı" adlanan əraziyə dəvət edib. Burada yeyib içdikdən sonra sərxoş vəziyyətdə C. Cəfərovla E. Əliyev arasında yaranmış mübahisə zamanı C. Cəfərov çəkiclə E. Əliyevin təpə nahiyəsinə iki dəfə vuraraq öldürüb və meyitini birlikdə A. Rüstəmovun idarə etdiyi avtomobilin yük yerinə qoyub Axarca kəndi istiqamətinə aparıblar.

Avtomobil nasaz vəziyyətə düşdüyündən meyiti oraya çağırılmış tanışları Xəyal Məmmədovun idarə etdiyi avtomobillə Axarca kəndi ərazisindəki meşəlik sahəyə aparıb basdırıblar.

İş üzrə Cavid Cəfərov, Aqil Rüstəmov və Qoçu Kərimov, Xəyal Məmmədov təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

## Bakıda məscidi yandıranlara hökm oxundu

**Bakı Ağır Cinayətlər Məhkəməsində Qaraçuxur qəsəbəsindəki məscidə partlayıcı vasitə atmaqda təqsirləndirilən Namiq Nəsibov və Elnur Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, hakim Rauf Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən E.Ələkbərov 15 il, Namiq Nəsibov isə məcburi müalicəyə göndərilib.**

Hökm oxunan zaman E. Ələkbərov sol qoluna ülgüclə xəsarət yetirib və o, məhkəmə zalından çıxarılıb.

Qeyd edək ki, 2014-cü il noyabrın 26-da Qaraçuxur qəsəbəsində yerləşən «Cümə» məscidi yandırılıb. Hadisəni törətməkdə şübhəli bilinən Namiq Nəsibov və Elnur Ələkbərov saxlanılıblar. Müəyyən edilib ki, Namiq Nəsibov 2014-cü ilin avqust-sentyabr aylarında PKK terror təşkilatının nəzarətində olan Suriya"Suriya Ərəb Respublikası ərazilərinə gedərək oradakı döyüşlərdə iştirak edib. Namiq Nəsibov Suriya"Suriyanın Kobani şəhərindən qayıtdıqdan sonra Elnur Ələkbərovla birgə PKK terror təşkilatının Azərbaycanda qanadı olaraq qeyri-rəsmi "Yekbun" təşkilatını yaradıb və ətraflarına tərəfdarlar toplamağa başlayıblar. Namiq Nəsibov və Elnur Ələkbərov sosial şəbəkələr vasitəsi ilə yaratdıqları təşkilatın adından Bakı şəhərində aksiyaların keçirilməsi üçün çağırışlar da edib.

## Bakıda 22 yaşlı qız bıçaqlandı

**Bakıda 22 yaşlı qız bıçaqlanıb. "Report"un xəbərinə görə, hadisə Tbilisi prospektində yerləşən binanın zirzəmisində baş verib.**

Həmin ərazidə Oğuz rayon sakini, 26 yaşlı Rahib Abduləzizov mübahisə zəminində Abşeron rayon sakini Ülkər Musayevaya bıçaqla xəsarət yetirib.

Hər iki qolundan yaralanmış Ü.Musayeva xəstəxanada tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

Faktla bağlı araşdırma aparılır.

## Azərbaycana sığınan 9 nəfərin qaçqın statusu ləğv edildi

**Azərbaycanda ötən il ərzində 9 nəfərin qaçqın statusu ləğv edilib. Bununla da ölkədə qaçqın statusu alaraq yaşayanların sayı 63 nəfərə enib.**

APA-nın məlumatına görə, bu barədə Nazirlər Kabinetinin 2015-ci il üzrə fəaliyyəti barədə hesabatda bildirilir.

Hesabatda qeyd olunur ki, ötən il ərzində 146 əcnəbi (ailə üzvləri ilə birlikdə 255 nəfər) qaçqın statusu almaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət edib. 121 əcnəbiyə qaçqın statusunun verilməsi barədə vəsatətlərin təmin olunmamasına, 43 əcnəbi haqqında isə qaçqın statusunun verilməsindən imtina edilməsinə dair qərarlar qəbul edilib.

Hazırda 6 əcnəbinin (ailə üzvləri ilə birlikdə 14 nəfər) vəsatəti icraatdadır. 2015-ci il ərzində Azərbaycana müraciət edənlərdən heç birinə qaçqın statusu verilməyib.

Hesabatda qeyd edilir ki, Azərbaycanda ötən il ərzində 24 330 nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxs ölkədən xaric edilib, onlardan 19 340 nəfəri 48 saat vaxt verilməklə ölkədən çıxarılıb.

Buna səbəb həmin şəxslərin ölkə ərazisində olma, müvəqqəti və daimi yaşama qaydalarına əməl etməməsi, habelə etibarsız sənədlərlə yaşama qaydalarını pozmaları olub. Hesabatda o da bildirilir ki, ötən il ərzində 2039 nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxsin əsas olduğu üçün ölkə ərazisində yaşaması leqallaşdırılıb. Ümumilikdə ölkədə yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 120 103 nəfərdir.

## "Bakcell"in yeni Klass tarifləri ilə Whatsapp-a pulsuz çıxış və 3 dəfədən çox internet trafiki

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti yeni Klass tariflərini istifadəyə verməklə, mobil internetdən istədikləri qədər istifadə etmək üçün öz abunəçilərinə daha çox mobil internet trafikini böyük məmnuniyyətlə təqdim edir. Bununla yanaşı, abunəçilər təqdim olunan bu beş yeni tarif sayəsində səs xidmətlərindən istifadə edərkən vəsaitlərinə qənaət etmək və ünsiyyət qurmaq üçün əlavə imkanlar əldə edəcəklər.**

**Bu yeni tariflərə qoşulan bütün abunəçilər Whatsapp tətbiqinə pulsuz qoşulmaq imkanına da malik olacaqlar.**

**Bu beş sərfəli Klass tarifinin hər birinin üstünlükləri aşağıdakı cədvəldə göstərilib:**

| Aylıq abunə haqqı | Pulsuz danışıq dəqiqələri, SMS və mobil internet | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ölkədaxili danışıq dəqiqələri | Ölkədaxili SMS | Ölkədaxili internet | Beynəlxalq zənglər | Rouminq Səs (daxil olan) | Pulsuz Whatsapp |
| 5 AZN | 100 | | 200 MB | | | 30 gün |
| 10 AZN | 250 | | 750 MB | | | 30 gün |
| 25 AZN | 750 | 750 | 1500 MB | | | 30 gün |
| 45 AZN | 1500 | 1500 | 5000 MB | 50 | 50 | 30 gün |
| 75 AZN | Limitsiz | Limitsiz | Limitsiz | 100 | 100 | 30 gün |

**"Biz öz müştərilərimizin sadiqliyini həmişə yüksək qiymətləndirir və yeni məhsullar yaradarkən daim onların maraqlarını nəzərə almağa çalışmışıq ki, onların gözləntilərini doğrulda bilək. Müştəri davranışı göstəricilərinin müşahidəsi göstərir ki, data xidmətlərinə olan tələbat getdikcə artmaqdadır. Bu faktı nəzərə alaraq, biz eyni aylıq ödənişin müqabilində 3 dəfə artıq internet trafikini təqdim etməyə qərar verdik. Müştərilərimizə Azərbaycanda bütün şəbəkələrə pulsuz zəng vurmaq imkanının verilməsi də ünsiyyət prosesini onlar üçün daha münasib və asan etmək üçün gördüyümüz səylərin nəticəsidir. Biz inanırıq ki, hər bir "Bakcell" abunəçisi ay ərzində istifadə etdiyi həcmə daha uyğun olan ən sərfəli tarifi asanlıqla tapa biləcək",- deyə "Bakcell" şirkətinin baş marketinq direktoru Maria Toyçeva bildirib. "Müştərilərimiz üçün daha bir xoş xəbər Whatsapp tətbiqinə pulsuz mobil çıxış imkanıdır. Artıq hər bir Klass abunəçisi ödədiyi aylıq tarif haqqından asılı olmayaraq mobil internet üçün pul ödəməyərək Whatsapp üzərindən ünsiyyətdə olmaq imkanına malik olacaq. Müştərilərimizi daim ən sərfəli qiymətlər və ən üstün keyfiyyətli şəbəkə ilə təmin etmək üçün səylərimizi gələcəkdə də davam etdirəcəyik",- deyə xanım Toyçeva əlavə edib.**

**5 yeni Klass tarifi haqqında daha ətraflı məlumat üçün bu səhifəyə daxil ola bilərsiniz: http://www.bakcell.com/klass/az/klass**

## Ev alqı-satqısı həbslə nəticələndi



**Abşeron polisi dələduzluq maddəsi ilə axtarışda olan şəxsi saxlayıb. Musavat.com xəbər verir ki, vətəndaşların etibarından sui-istifadə edərək onların külli miqdarda pulunu mənimsəməkdə şübhəli bilinən Masallı rayon sakini, 38 yaşlı Ziya Ələkbərli istintaqa cəlb edilib.**

Ziyanın iddiasina görə, o, kiminsə pulunu mənimsəməyib. Saxlanılan şəxs deyir ki, o, vaxtilə ona məxsus olan mənzili satıb. Daha sonra həmin şəxs Abşeron rayonunun Novxanı qəsəbəsindəki 5 sot torpaq sahəsində ev tikib təhvil verməli imiş. Qarşılıqlı razılaşmadan sonra məbləğin bir hissəsi əvəzinə ona avtomobil də verilib. Amma sonradan onun tikdirməkdə olduğu ev yarımçıq qalır və satdığı evin sənədlərinin düzgün olmadığı üzə çıxır. Bu isə tərəflər arasında mübahisəyə gətirib çıxarır. Bununla da 73 min manatdan artıq vəsaitin geri qaytarılması tələb olunub.

Hazırda istintaq ziddiyyətli məqamları araşdırır. 12 il öncə eyni əmələ, yəni dələduzluq etdiyinə görə məhkum edilmiş Ziya Ələkbərli barəsində rayon məhkəməsinin qərarı ilə 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

## Ağdaşda dəhşətli qəza; bir ailənin iki üzvü öldü

**Ağdaş rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Musavat.com-un DİN-in saytına istinadən verdiyi məlumata görə, martın 6-da saat 20 radələrində Ağdaş rayonunun Türyançay qəsəbəsində Qəbələ rayon sakini Nail Məmmədov idarə etdiyi "VAZ-2106" markalı avtomobili yolun kənarındakı hasara vurub.**

Nəticədə avtomobilin sürücüsü Nail Məmmədov və qayınanası, 1961-ci il təvəllüdlü Abdullayeva Şəfiqə Eldar qızı hadisə yerində ölüb. Sürücünün həyat yoldaşı, 1983-cü il təvəllüdlü Məmmədova Maya Allahyar qızı ağır bədən xəsarətləri alaraq Ağdaş Mərkəzi rayon Xəstəxanasına yerləşdirilib.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

Ağdaş rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Elan**

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işıgı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**

**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**

**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**

**e-mail: travelaz2016@gmai.com**

**whatsapp: +1 845 300 7030**

**Tel: +99451 635 2408**

YENİ MÜSAVAT
N 54 (6375) 8 mart 2016

**Novruz yaxınlaşır. Bayramda da hər kəs süfrəsinin gözəl olmasını arzulayır. Süfrədə adları "S" hərfi ilə başlayan yeddi növ xörək yer alır. Həmçinin sumax, sirkə, süd, səməni, səbzi və sairə də olmalıdır. Bunlardan başqa masanın üstünə güzgü və şamlar qoyulur.**

# Novruz süfrəsinin yaz atributları

## Bayram süfrəsini bəzəmək neçəyə başa gələcək?











Bunların da öz rəmzi mənası var. Məsələn, şam - od, işıq deməkdir, güzgü isə aydınlıq rəmzidir. Ümumiyyətlə, bayramlarda aksessuarlardan istifadə insan psixologiyasına müsbət təsir edir. Novruz bayramında da müxtəlif yaz aksessuarlarından istifadə edilir. Bayramda rəngbərəng yumurtalar boyanır, məcməyi və sinilərdə xonça bəzənir. Azərbaycanda adətə görə, Novruzda göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Buna görə də Novruzda səməni və şamlar geniş istifadə olunan aksessuarlardandır. Bayramda hər kəs evində şəkərbura, paxlava bişirir. Evində şəkərbura, paxlava bişirməyənlər isə onu hazır şəkildə alır və ya bişirtdirir. Buna görə də hər kəs bayram süfrəsinin rəngarəng olması üçün Novruz aksessuarları satılan mağazalara üz tutur və xonça bəzəmək üçün lazım olan ləvazimatları alır.

Maraqlıdır, bəs bayram süfrəsini rəngarəng bəzəmək neçəyə başa gələcək? Lazım olan aksessuarların, şəkərbura, paxlavanın qiyməti cibimizə uyğundurmu?

Bunu öyrənmək üçün bir neçə marketə və bazara baş çəkib qiymətlərlə maraqlandıq. Mağazalarda bir-birindən fərqli bəzədilmiş səmənilər, rəngarəng şamlar göz oxşayırdı. Qiymətlər isə müxtəlif idi. Yalnız şəkərburadan ibarət hazır xonça 30 manat 25 qəpiyə, paxlavadan ibarət olan xonça 30 manata, badamburadan ibarət xonça isə 25 manata satılırdı. Müxtəlif növ noğulların qiyməti isə 15 manatdan başlayırdı. Yumurta formasında olan rəngarəng şamlar 2 manata, səməni formasında olan şamlar 1 manat 80 qəpiyə, səməni formasındakı böyük şamlar isə 6-7 manata satılırdı. Kiçik bağlamada olan 6 ədəd balaca rəngli şamlar isə 80 qəpik idi. Nisbətən uzun tək rəngli şamlar 1-2 manat arasında satılırdı. Səmənilərin qiyməti də onların uzunluğu, forması və dizaynına görə fərqli idi. Belə ki, sadə yumru səmənilər 50 qəpik- 1 manat arası, belinə qırmızı lent bağlanmış və üzərinə quş aksessuarı qoyulmuş səmənilər isə 2 manata satılırdı. Ürək, buta formasında olan səmənilərin qiyməti isə 3 manatdan başlayırdı.

**Səməni alanlar qiymətdən narazı idilər. Alıcı Aynur Məmmədova Novruz süfrəsi üçün alış-verişə çıxdığını, ancaq bəzi məhsulların qiymətinin onu qane etmədiyini deyirdi:** "Novruz bayramında səməni həmişə özüm qoyardım. Bu dəfə elə oldu ki, qoya bilmədim. İndi qoysam artıq cücərməsi bayrama çatmayacaq. Ona görə də almaq qərarına gəlmişəm. Amma qiyməti bahadır. Yəni bir damcı buğda töküb balaca bir səməni cücərdirlər, qiyməti də 2 manat. Orada heç iki manatlıq buğda yoxdu. Keçən il bu səmənilər 50 qəpiyə satılırdı. Görünür ki, səməni böyüdükcə onun qiyməti də böyüyür".

**Digər alıcı isə yumurta üçün olan kağızların qiymətindən narazı idi:** "Keçən il bu kağızlar 5 qəpiyə satılırdı. İndi isə 35 qəpiyə. Keçmişdə olduğu kimi yumurtaları soğan, çuğundurla boyayacağam".

Qeyd edək ki, yumurta boyanması üçün lazım olan toz formasında olan boyalar 1 manata, üzərində Novruz bayramının müxtəlif adətlərini əks etdirən və yumurta üçün nəzərdə tutulan şəkilli kağızların bir ədədi isə 35 qəpiyə satılırdı. Yumurtanın qiyməti 10 qəpiyə idi. Şəkərbura, paxlavanın bir ədədi isə 30-40 qəpik arasında satılırdı.

Şirniyyat mağazalarından şəkərbura, paxlava bişirmənin neçəyə başa gələcəyi ilə maraqlandıq. Bir neçə şirniyyat mağazasında apardığımız müşahidədən məlum oldu ki, bir list şəkərbura, paxlava bişirtdirmək 30-50 manat arasında başa gəlir. Şirniyyatı bişirəcək olanlar qiymətlərin bu cür olmasını şirniyyatların hazırlanması üçün lazım olan ərzaqların qiymətinin bahalığı ilə əlaqələndirdilər: "Şəkər tozu, qoz, fındıq bahalaşıb. Ona görə də qiymət bu cürdür. Biz də ərzaqların pulunu çıxarmalıyıq. Hələ biz ən aşağı qiyməti deyirik".

❑ **Günel MANAFLI**
❑ **Fotolar müəllifindir**

## Məşhurların sevdiyi 3 şəhər...





**Dünyanın bir-birindən gözəl gəzməli, görməli şəhərləri var. Bəs məşhurların ən çox sevdiyi 3 şəhər hansıdır?**

"Bakılı oğlanlar" (KVN) komandasının məşhur üzvlərindən biri, əməkdar artist Bəhram Bağırzadə sevdiyi şəhərləri bu cür açıqladı: "Bakı, Bakı, bir də Bakı. Ən sevdiyim şəhərdir. Mən ondan həzz alıram, özümü yaxşı hiss edirəm, orda mənim ata və anam doğulub, mən oxuyub, təhsil, tərbiyə almışam. Övladlarım da bu şəhərdə dünyaya göz açıb. O ki qaldı mənim daxili aləmimə, əlbəttə ki, bu mənada sevdiyim şəhər Məkkədir. Məkkə dünyanın paytaxtıdır. Mən orda rahatlıq tapır, Allahla ünsiyyətdə oluram.

Dünyəvi məsələdə isə arzusunda olduğum, lakin bu vaxtadək gedə bilmədiyim bir şəhər var. Bu, Barselona şəhəridir. 10 yaşımda ikən həmin şəhərin görüntülərini görüb vurulmuşdum. Amma əfsuslar olsun ki, bu günədək o şəhərə gedib çıxa bilməmişəm. Ən xoşuma gələn şəhər isə Parisdir. Amma Parisə 4-cü dəfə gedib seyr etdikdən sonra o şəhərə də vuruldum.

Ən çox getmək istədiyim şəhər Yerevandır. İstəyirəm ki, öz torpağım kimi ora gedim. Allah-təala qismət etsin, torpaqlarımız geri qayıtsın və Yerevan xanlığı da ərazimizə daxil edilsin. Gedib orda istirahət edək".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** ən çox sevdiyi şəhərlərin Bakı, İstanbul, Vyana olduğunu dedi.

**ADP sədri Sərdar Cəlaloğlu** Naxçıvanda doğulsa da, daha çox Bakını sevdiyini bildirib. Partiya sədri Bakıya olan sevgisini belə izah edib: "Sevdiyim şəhərlərdən biri İstanbuldur. Çünki Türkiyənin tarixi, türklərin ən böyük şərəf verdiyi abidəsidir İstanbul. Daha sonra isə Amsterdamı sevirəm. Şəhərin qeyri-adi, gözəl arxitekturası, aurası var. Təbii ki, sevdiyim şəhərlərdən biri də Bakıdır. Naxçıvanda doğulub-böyümüşəm, təbii ki, vətən kimi o şəhəri də sevirəm. Amma Bakı da bizim dünyaya açılan pəncərəmiz, bizi təqdim edən şəhərdir. Bakı Paris, London kimi şəhərlərlə müqayisə olunan, o qəbildən olan şəhərdir. Daha sonra Azərbaycan şəhərlərindən Lənkəranı və xüsusən də Şəkini çox sevirəm. Şəki Azərbaycanın milli koloritini özündə cəmləşdirib".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu da sevdiyi şəhərlərin adını açıqlayıb:** "Birinci İstanbul, Vyana, Naxçıvan. Çünki Naxçıvan vətənimdir, orda anadan olmuşam. İstanbul da vətənimdir, türklərin vətənidir. Ən çox sevdiyim, ən gözəl şəhərlərdən biridir. Vyananı da çox gözəl arxitekturası olduğu üçün sevirəm. Bu şəhərdə məni valeh edən çox gözəlliklər var".

**Seymur Verdizadənin də sevdiyi şəhərlər arasında paytaxt Bakı yer alır:** "Ən çox sevdiyim üç şəhər Cəbrayıl, Ankara və Bakıdır. Cəbrayıl doğulduğum rayonun mərkəzi idi. Orta məktəbi kənddə oxumuşam. Amma dərs əlaçısı olduğum üçün tez-tez rayonda keçirilən tədbirlərə dəvət alırdım. Uşaqlıq və yeniyetməlik xatirələrim Cəbrayılla bağlıdır. Cəbrayıl işğal altda olduğu üçün indi o xatirələri toz basıb...

Ankarada isə tələbəlik illərim keçib. İnsan həyatında tələbəlik illərindən gözəl dövr ola bilməz. Həmişə Ankaraya gedəndə, özümdən asılı olmayaraq, çox həyəcanlanıram. Ankara gəncliyimin şəhəri olduğu üçün onu unuda bilmirəm. Bakı isə vətənimin paytaxtıdır. Ailəm, əzizlərim burda yaşayır. Bir həftədən artıq xaricdə qala bilmirəm. Bakı zəhlətökən küləyi, orta əsrlərə xas olan qorxunc istehkamları xatırladan körpüləri, su üzünə həsrət qalan fontanları ilə mənə doğmadır".

❑ **Xalidə GƏRAY**

# Nəqliyyat Nazirliyinin səlahiyyətlərinin alınma səbəbi- ekspert şərhi

**Xəbər verildiyi kimi, Nəqliyyat Nazirliyinin səlahiyyətləri azaldılıb. Əgər indiyə qədər avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının lisenziya (lisenziya kartı) olmadan və ya lisenziyalaşdırma şərtlərinin pozulması ilə yerinə yetirilməsi aşkar edildikdə, Nəqliyyat Nazirliyi qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlərin görülməsini təmin edibsə, bundan sonra bu sahədə Nəqliyyat Nazirliyi deyil, Daxili İşlər Nazirliyi qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görəcək.**

Məsələ ilə bağlı musavat.com-a danışan **hüquqşünas Ərşad Hüseynov** bildirib ki, əslində bu, texniki məsələ idi: "Bu səlahiyyətlər Nəqliyyat Nazirliyindən ötən ilin noyabr ayında alınaraq Dövlət Yol Polisinə verilmişdi. Səlahiyyətlər Nəqliyyat Nazirliyində olduğu zaman insanlardan çoxlu şikayətlər vardı. Hətta bir neçə dəfə nazirliyin əməkdaşları ilə vətəndaşlar arasında davalar da olub. Ancaq dəyişikliyi təsdiq edənlər yenə də səhvə yol veriblər, çünki daşıma şərtlərini pozan taksi və ya avtobus cərimə meydançasına aparıla bilməz. Cərimə meydançasına aparılma halları İnzibati Xətalar Məcəlləsinin 96-97-ci (köhnədə 406-407-ci) maddələrində sadalanır və orada daşıma şərtlərini pozma yoxdur. Əslində buna ehtiyac da yoxdur. Normal məntiq və sağlam təfəkkür də deyir ki, avtobus və ya taksi sürücüsü sərnişindaşıma şərtlərini pozarsa, ona cərimə yazılmalı və deyilməlidir ki, sərnişinləri düşür, avtobusunla (taksinlə) çıx get evinə (və ya qarajına), bu işlə məşğul olma. Cərimə meydançası sərnişindaşıma şərtlərini bərpa edəsi deyil".

**Bu kimi səlahiyyətlərin alınması nəticəsində Nəqliyyat Nazirliyinin bir qurum kimi ləğvinə gəlincə, ekspert aşağıdakıları bildirib:** "Nəqliyyat Nazirliyində xeyli səlahiyyətlər var. Nazirlik hələ ki mövcuddur və fəaliyyət göstərir. Gələcəyi isə dövlət başçısından asılı olan bir məsələdir. Əgər məqsədəuyğun olarsa, qurum kimi fəaliyyətini davam etdirəcək. Olmayacaqsa, struktur dəyişiklikləri aparılacaq".



❑ **Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 54 (6375) 8 mart 2016



## Kişmişin faydaları

Tumsuz kişmiş çox əhəmiyyətli bir qida qaynağıdır. Tərkibindəki şəkər qlükoza və fruktozadan ibarətdir. Qlükozanın başda beyin olmaqla, bütün bədənin inkişafında və fəaliyyətində ehtiyac duyduğu enerji qaynağı, yəni yanacağıdır. Xüsusilə idman edən insanlar idmandan əvvəl kişmiş yeməklə orqanizmlərini enerji ilə təmin edə bilərlər. Kişmişdən hər gün istifadə etmək həzm sisteminin işini təmin edir. İnfarkt riskini azaldır. Bununla yanaşı, qaraciyər xəstəlikləri və qan azlığına da faydalıdır. Eyni zamanda bədəni kökəldir, qan miqdarını artırır. Kişmişin bir başqa xüsusiyyəti isə tərkibində yüksək miqdarda 2 valentli dəmirin olmasıdır. Bu quruluşdakı dəmir əsasən qansızlıq problemini aradan qaldırmaqda faydalı olub, qan dəyərini yüksəldir. Qanazlığı probleminə əsasən qadınlarda və uşaqlarda rast gəlinir. Eyni zamanda döş xəstəliklərinin müalicəsi üçün də faydalıdır. Tumsuz kişmişdən istifadə etmək bu problemləri aradan qaldırmaq üçün effektiv təbii yoldur. Ürək döyüntülərini tənzimləyən, sinir və sümük hüceyrələrinin inkişafına xüsusi təsiri olan kişmiş maqneziumla zəngindir. Başda uşaqlar olmaqla, hər kəsin üzümdən istifadə etməsi məsləhətdir. Vətəndaşlarımızın xüsusilə Ramazan ayında kişmişdən istifadə etmələri faydalı olar.

# Saçları ilə məşhurlaşdı

Qıvırcıq saçları ilə internetdə məşhurlaşan Farouk Jamesin 4 yaşı olsa da, son zamanlar həm moda aləmində, həm də sosial şəbəkələrdə ünlü birinə çevrilib. London moda həftəsində iştirak edən Jamesin anası həm oğlunun reklam gəlirlərini artırmaq, həm də onun gələcəyi üçün pul yığmaq məqsədilə "İnstaqram" hesabı açıb. Hazırda 75 min təqibçisi olan Jamesin anası onun üçün narahat olduğunu deyir. Çünki az yaşda həddən artıq çox pul qazanan Hames həm çox ərköyün, həm də əsəbi uşağa çevrilib. Anası onun çox dəyişməməsi üçün davamlı olaraq pedaqoq və psixoloqlardan kömək alır.



# Qadınları xoşbəxt edən 20 şey!

1. Şəkildə yaxşı görünmək
2. Dekolte paltar geymək
3. Tətildən qaralmış bir bədənlə dönmək
4. Yeni bir şey satın almaq
5. Qucaqlaşmaq
6. Makiyaj etmək
7. Çilsiz olmaq
8. Yeni alt paltarları
9. Birinin onun yaşından gənc olmasını söyləməsi
10. Bir dəvətə çağırılmaq
11. Qaşlarını aldırmaq
12. Saçlarda yenilik etmək (seqment ya da boya)
13. Başqa birinin gülümsəməsi
14. Sevgilinin "Səni sevirəm" deməsi
15. Gözəl və hamar qıçlara sahib olmaq
16. Çox cazibədar bir paltarın içində olmaq
17. Manikür etmək
18. Bir uşağın "Çox gözəlsən" deməsi
19. Gecə yaxşı bir yuxu görmək
20. Yoldaşı, ya da sevgilisindən iltifat almaq.





## Qucaqlamaq uşağa çox faydalı imiş

Yeni aparılan araşdırmalara görə, valideynləri tərəfindən daha tez-tez qucaqlanan uşaqlar böyüdükləri zaman daha sağlam, daha məsuliyyətli, ağıllı və depressiyaya daha az meylli olurlar. 600 nəfər üzərində aparılan araşdırmalara görə, uşaq vaxtı ana-ataları tərəfindən daha çox qucaqlanan insanların psixoloji problemləri daha az olur. Mütəxəssislər tez-tez qucağa alınan uşaqların daha tərbiyəli və anlayışlı olduqlarını bildirirlər. Alimlərin sözlərinə görə, uşaqlardan ağlaya-ağlaya sakitləşməsini gözləmək onların inkişafına pis təsir edir.

Valideynlərin körpələrinə qucaqda nəvaziş göstərməsi onların gələcəkdə şəxsiyyət kimi inkişaf etməsində və daha asan tərbiyə edilməsində önəmli rol oynayır.




**QOÇ** - Ulduzlar şəxsi büdcənizi artırmaq üçün sizə yardımçı olacaq. Bu baxımdan bütün alacaqlarınızı əldə etmək üçün boş durmamalısınız. Martın 9-da yaxın ünvanlara qonaq gedin.

**BUĞA** - Martın 8-i müəyyən mənada gərgin gündür. Proseslərin inkişafı iradənizin ziddinə gedə bilər. Odur ki, özünüzü ələ almalısınız. Sabahsa perspektivli görüşlərdə iştirakınız mümkündür.

**ƏKİZLƏR** - Sağlıq durumunuzun qayğısına qala bilsəniz, hər iki gündə heç bir xoşagəlməzliklə rastlaşmayacaqsınız. Əksinə, bu gün nahardan sonra bir-birinin ardınca yaxşı xəbərlər eşidəcəksiniz.

**XƏRÇƏNG** - Əmin olmadığınız şeylər barədə verdiyiniz vədlərə görə indi başınız ağrıyır. Bu səbəbdən də inciklikər artmaqdadır. Maksimum tədbirli olun. Tələsik qərar çıxarmayın.

**ŞİR** - Daha çox sevgi istiqamətində uğurlarınız mümkündür. Fəaliyyət və pul məsələlərində isə hələlik gözləmə mövqeyi seçin. Heç kimə əmin olmadığınız cavabı verməyin. Riskdən qaçın.

**QIZ** - Ətrafınızda olan bədxah adamların sayı xeyli artıb. Elə güman etməyin ki, onların öhdəsindən gəlmək mümkün deyil. Sadəcə, ədalət prinsiplərinə söykənməklə onlara qalib gəlmək olar.

**TƏRƏZİ** - Bu günlərdə insanlarla əlaqələrinizi genişləndirməyə çalışın. Çünki ulduzlar münasibətlərin yüksək səviyyədə olacağından xəbər verir. Bu axşam qonaq qəbul etmək üçün səmərəlidir.

**ƏQRƏB** - İxtiyarınızda olan bu bayram ərəfəsi kifayət qədər uğurlu olacaq. İstər yeni sövdələşmələrdə, istərsə də şəxsi büdcənizi tənzimləməkdə Göy qübbəsi sizə yardımçı olacaq.

**OXATAN** - Şəxsi həyatınızda müsbət dönüş gözlənilir. Amma gərək qarşıya qoyduğunuz planları axşama qədər reallaşdırasınız. Əks təqdirdə, sonrakı müddətdə buna imkanınız olmayacaq.

**OĞLAQ** - Maraqlı ərəfə yaşayacaqsınız. Hətta martın bu günlərində hədsiz sevincinizə səbəb olan bir neçə xəbər də eşidə bilərsiniz. Bununla yanaşı, varlanmaq ehtimalınız da var.

**SUTÖKƏN** - Əgər dinə zidd addımlardan uzaq ola bilsəniz, heç bir xoşagəlməzliklə rastlaşmayacaqsınız. Heç kimə yalan vəd verməyin. Sabah vaxt tapıb müqəddəs ziyarətgahlara da baş çəkin.

**BALIQLAR** - Yeni əlaqələr yaratmaq istəyirsinizsə bu tarixdən maksimum istifadə edin. İşlətdiyiniz hər bir kəlmənin məsuliyyətini hiss edin. Uzaqda yaşayan doğmalarınızla əlaqə yaradın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 1 ay liftdə qaldı



Çində yaşayan qadın 1 ay liftdə qalaraq vəfat edib. Məlumatlara görə, adı açıqlanmayan qadın liftdə olarkən lift işçiləri orada kiminsə olub-olmadığını yoxlamadan elektriki kəsiblər. Lift işçilərinin işi bitdikdən sonra isə binanı tərk ediblər. Yaşayış olmayan binadan çıxan lift işçiləri orada kiminsə olub-olmadığını bilmədən oradan uzaqlaşıblar. Çarəsiz qadın səsini heç kəsə eşitdirə bilmədiyi üçün uzun müddət liftdə 10 və 11-ci mərtəbələr arasında qalıb. Bir müddət sonra isə acından ölüb. Yeni il tətilindən qayıdan lift işçiləri 1 ay sonra qadının ölmüş bədəni ilə qarşılaşıblar. Polislər qadının heç bir travma almadığını, yalnız acından öldüyünü dilə gətiriblər.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750